# XƏZƏR XƏBƏR

KHAZAR REVIEW

№ 431 Sentyabr 2023



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org





*Hamlet İsaxanlı*

# XƏZƏR UNİVERSİTETİNDƏ YENİ DƏRS İLİ BAŞLADI

Sentyabrın 15-də Xəzər Universitetində yeni dərs ilinin başlaması münasibətilə tədbir keçirildi. Tədbirdə universitetin rəhbərliyi, fakültə dekanları və departament müdirləri, müəllimlər, universitetə qəbul olunmuş tələbələr və valideynlər iştirak edirdilər.

Tədbir Azərbaycan Respublikasının Dövlət Himninin ifası ilə başladı. Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı çıxış edərək, universitet haqqında da ümumi məlumat verməklə yanaşı, özünəməxsus xüsusiyyətləri haqqında danışdı. Qeyd etdi ki, ingilisdilli ali təhsil müəssisəsi kimi yaranan universitet dünya təhsil sisteminə inteqrasiya yolu ilə inkişaf edərək, yüksək ixtisaslı məzunlar yetişdirməyə nail olmuşdur. Natiq xüsusilə vurğuladı ki, universitetin dünyaya açılması fonunda tələbələrin milli-mənəvi dəyərlərin fəal daşıyıcıları olması istiqamətinidə əsaslı iş aparılır.

Universitetin rektoru Dos. İradə Xəlilova tələbələrin təhsili üçün yaradılmış səmərəli şərait haqqında məlumat

# A NEW ACADEMIC YEAR BEGINS AT KHAZAR UNIVERSITY

On September 15, a ceremony dedicated to the start of a new academic year was held at Khazar University. The university administration, faculty deans and heads of departments, faculty members, students admitted to the university and parents attended the event.

The ceremony started with the State Anthem of the Republic of Azerbaijan. Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, delivered a speech and, in addition to providing general information about the university, spoke about its unique features. He noted that the University, which was established as an English-language higher education institution, developed through integration into the world education system and managed to train highly qualified graduates.

The speaker especially emphasized that in the light of the opening of the university to the world, substantial work is underway to ensure that students are active carriers of national and moral values. Rector of the University



verdi, onların hərtərəfli inkişafı üçün mədəni və idman tədbirlərinin müntəzəm keşirildiyini, Xəzər Universitetinin tələbə mərkəzli bir ali məktəb olduğunu nəzərə çatdırdı.

Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Dos. Elza Səmədova çıxış edərək, fakültələr və ixtisaslar haqqında məlumat verdilər.



*Fəxrəndə Əfəndiyeva*



*İradə Xəlilova*

Çıxış edənlər tələbələri və valideynləri təbrik etdilər, tələbələrə uğurlu təhsil həyatı arzuladılar.

Tədbirdə Xəzər Universitetinin Qızlardan ibarət Rəqs Qrupunun ifası təqdim olundu.

Assoc. Prof. Irada Khalilova, informed about the effective conditions created for the education of students, noted that cultural and sports events are held regularly for their comprehensive development, and that Khazar University is a student-centered higher education institution.

Dr. Fakhranda Afandiyeva, dean of the School of Science and Engineering, Dr. Jeyhun Mammadov, dean of the School of Economics and Management, Assoc. Prof. Elza Samadova, dean of the School of Humanities, Education and Social Sciences, spoke and gave information about the faculties and specialties.

The speakers congratulated the students and parents, wished the students a successful educational life.

Khazar University's Girls Dance Group performed at the event.



*Ceyhun Məmmədov*



*Elza Səmədova*

# İÇİNDƏKİLƏR

Xəzər Universiteti Avropanın ən yaxşı 400 universiteti sırasındadır ........ 6
Keşlə Şəhidlər Xiyabanını ziyarət ........ 7
Nailəxanım Muzeyi təqdim edir: "Tarixdə iz salan, Azərbaycan mədəniyyətinə töhfə verən qadınlar" seriyasının növbəti kitabı: "Qaçaq Həcər" ........ 8
"Dünya" məktəbinin məzunu olmuş hüquqşünas Prezident Administrasiyasında yüksək vəzifəyə təyin edilib ........ 9
Bakı "Dünya" Məktəbinin və Sumqayıt "Dünya" Məktəbinin şagirdləri ABŞ-ın Nyu -York şəhərində keçirilmiş Beynəlxalq Kopernik Riyaziyyat Olimpiadasının qalibləri arasında ........ 10
Xəzər Universiteti və BMT-nin İnkişaf Proqram Azərbaycan ofisinin birgə tədbiri ........ 12
Dövlət Məşğulluq Agentliyində görüş ........ 13
Universitetlərin beynəlxalq əlaqələr və əcnəbi tələbələrlə iş üzrə rəhbər şəxslərinin görüşü ........ 14
ASAAİ: "Hind okeanının geosiyasəti" mövzusunda açıq mühazirə ........ 15
Ardahan Universiteti "Xəzər"də ........ 16
"Xəzər"in əməkdaşları elmi ekspedisiyada ........ 17
Prof. Akad. Hamlet İsaxanlının Ankaraya işgüzar səfəri ........ 18
Xəzər Universitetinin müəllimi arxeoloji tədqiqatlarda ........ 27
Beynəlxalq münasibətlər və diplomatiya üzrə 2-ci Yay məktəbi ........ 28
"Xəzər"in Çin tədqiqatlar mərkəzinə kitab hədiyyə edilib ........ 29
"Xəzər"in məzunu Dövlət proqramı ilə Texas Universitetində təhsil alacaq ........ 30
İndoneziyanın İslam Malanq Universitetinin nümayəndələri "Xəzər"də ........ 32
Karamanoğlu Mehmetbey Universitetinin nümayəndələri ilə görüş ........ 34
AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri ........ 36
Cintana Education şirkətinin rəhbərliyi ilə görüş ........ 41
Gazi Universitetinin nümayəndəsi "Xəzər"də ........ 43
Məhəmməd Əli Cinna Universitetinin əməkdaşları "Xəzər"də ........ 44
Portuqaliyanın Braqança Texniki Universitetinin professorları "Xəzər"də ........ 46
"Xəzər"in tələbələri Erasmus+ tələbə mübadilə proqramında ........ 48
Coğrafiya və ətraf mühit departamentinin müdiri IPBES-in plenumunda ........ 50
Xəzər Universitetinin tədqiqat layihəsi qalib oldu ........ 51
"Azərbaycandan dünyaya doğan günəş: Şəms və Mövlana" mövzusunda seminar ........ 58
Xəzər Universitetinin nümayəndələri 23-cü Çin Beynəlxalq Sənaye Sərgisində ........ 62
Şərq tərəfdaşlığı regionunda açıq elmin təşviqi layihəsi çərçivəsində ilk görüş ........ 70
Elmi şuranın iclası ........ 71
"Xəzər"in xarici nəşrləri ........ 72

1995-ci ilin yanvarından nəşr olunur

**Təsisçi:**
Xəzər Universiteti

**Baş redaktor:**
Hamlet İsaxanlı

**Baş redaktor müavini:**
Əlirza Balayev

**Foto:**
Multimedia Mərkəzi

Xəzər Universiteti

Ünvan:
Bakı, Məhsəti küçəsi 41

Tel.: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mob.: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org

Tiraj: 3000

**Redaksiya heyəti:**
Alla Axundova
İsa Həbibbəyli
İsaxan İsaxanlı
İsmixan Yusubov
Knyaz Aslan
Şahin Fazil

**İngilis dilində mətnlərin redaktoru:**
Zamirə Qurbanova

**Kompüter tərtibatçısı:**
Günel Əkbərova

# CONTENTS

Khazar University Among the top 400 Universities in Europe ........ 6
Visit to Keshla Martyrs' Alley ........ 7
Nailekhanim Museum Presents: the Next Book of the Series" Women who Made a Mark in History and Contributed to Azerbaijani Culture": "Qachaq Hajar" ........ 8
"Dunya" School Graduate Appointed to a High Position in the Presidential Administration ........ 9
Students of Baku "Dunya" School and Sumgayit "Dunya" School are Among the Winners of the International Copernicus Mathematics Olympiad Held in New York, USA ........ 10
A Joint Round-table Event of Khazar University and UNDP Office in Azerbaijan ........ 12
Meeting at Azerbaijan Public Employment Agency ........ 13
Meeting of Heads of Universities on International Relations and Work with Foreign Students ........ 14
Open lecture on "Geopolitics of the Indian Ocean" in IAPAS ........ 15
Ardahan University Staff at Khazar University ........ 16
Khazar University Employees on a Scientific Expedition ........ 17
Prof. Acad. Hamlet Isakhanlı`s Business Trip to Ankara ........ 19
Khazar University Faculty Member in Archaeological Researches ........ 27
2nd Summer School on International Relations and Diplomacy ........ 28
A Book Presented to Khazar University China Studies Center ........ 29
Khazar University Graduate to Study at the University of Texas Under the State Program. 30
Representatives of Indonesia's Islam Malang University at Khazar University ........ 32
Meeting with Representatives of Karamanoğlu Mehmetbey University ........ 34
News of the Institute of ANAS Named After Nizami (*in Azerbaijani*) ........ 36
Meeting with the Management of Cintana Education ........ 41
Gazi University Representative at Khazar University ........ 43
Employees of Muhammad Ali Jinnah University at Khazar University ........ 44
Professors from Technical University of Bragança, Portugal at Khazar University ........ 46
Khazar University Students in Erasmus+ Student Exchange Program ........ 48
Geography and Environment Department Head at the Plenum of IPBES ........ 50
Khazar University Research Project Announced as Winner ........ 51
Seminar on "The Sun Rising From Azerbaijan to the World: Shams and Mevlana" ........ 58
Khazar University Representatives at the 23rd China International Industry Fair ........ 62
The First Meeting within Advancing Open Science in Eastern Partnership Region Be Open- ERASMUS+ CBHI Project ........ 70
Scientific Council Meeting ........ 71
"Khazar"s Foreign Publications ........ 72

It has been published since January 1995

**Founder:**
Khazar University

**Editor-in-chief:**
Hamlet Isakhanli

**Associate editor:**
Alirza Balayev

**Photo:**
Multimedia Centre

Khazar University
Adress:
41 Mehseti Str. Baku, Azerbaijan

Phone: (+994 12) 323 93 13
(+994 12) 421 10 93
Mobile: (+994 50) 321 31 69

E-mail: contact@khazar.org
Tiraj: 3000

**Editorial members:**
Alla Akhundova
Isa Habibbayli
Isakhan Isakhanli
Ismikhan Yusubov
Knyaz Aslan
Shahin Fazil

**Editor of English Texts:**
Zamira Gurbanova

**Computer graphics:**
Gunel Akbarova




# XƏZƏR UNİVERSİTETİ AVROPANIN ƏN YAXŞI 400 UNİVERSİTETİ SIRASINDADIR

*Xəzər Universiteti "QS Dünya universitetləri reytinqi: Avropa – 2024"-ün (QS World University Rankings: Europe 2024) ilk nəşrinə əsasən Avropanın ən yaxşı 400 universiteti arasında yer almışdır.*

Sentyabrın 20-də dünyanın nüfuzlu ali təhsil reytinqlərindən biri olan QS Quacquarelli Symonds ilk dəfə olaraq Avropa universitetlərinin reytinqini açıqlayıb. Reytinq qlobal təhsil məkanında tanınma, tədqiqat nəticələri, tədris resursları, beynəlmiləlləşmə, məzunların işlə təminatı və digər göstəriciləri özündə birləşdirir.

Bu nüfuzlu reytinqdə Avropa Şurasına daxil olan 42 ölkədən 688 ali təhsil müəssisəsi qiymətləndirilib. Azərbaycandan siyahıda 8 universitet təmsil olunmuşdur. Xəzər Universiteti ümumi nəticədə 372-ci yerdə qərarlaşmaqla, Qərbi Asiya universitetləri arasında 16-cı olmuşdur.

Bununla yanaşı, Xəzər Universiteti məqaləyə sitat gətirmə üzrə Avropanın ən yaxşı 70 universiteti arasında öz mövqeyini müəyyənləşdirmiş, həmçinin, mübadilə proqramları çərçivəsində qəbul edilən tələbələr və beynəlxalq tələbə müxtəlifliyi göstəriciləri üzrə ön sırada yer almışdır.

Qeyd edə bilərik ki, ümumi reyitinqlə yanaşı, Şərqi Avropa, Qərbi Avropa, Şimali Avropa, Cənubi Avropa və Qərbi Asiya regionları üzrə də nəticələr elan olunmuşdur.

Reytinq haqqında daha ətraflı məlumat aşağıdakı linkdə:

# KHAZAR UNIVERSITY AMONG THE TOP 400 UNIVERSITIES IN EUROPE

*Khazar University has achieved a significant milestone by securing a place among the top 400 universities in Europe, as per the first-ever edition of the QS World University Rankings: Europe 2024.*

On September 20th, QS Quacquarelli Symonds, a global authority in higher education rankings, unveiled its comprehensive ranking of universities across Europe. This historic ranking considered various indicators, including global recognition, research performance, teaching resources, internationalization, and graduate employability. This ranking encompasses different regions within Europe, such as Western Europe, Northern Europe, Southern Europe, and Western Asia.

A total of 688 institutions spanning 42 countries, all members of the Council of Europe, were evaluated in this prestigious ranking, with Azerbaijan contributing 8 universities to the list. Khazar University made its mark by securing the 372nd position overall and stood out by ranking 16th among universities in Western Asia.

Remarkably, Khazar University achieved a place among the top 70 universities in Europe in terms of citation per paper and excelled in categories related to inbound exchange students and international student diversity.

For more information, please visit the QS website:

***https://www.topuniversities.com/europe-university-rankings***

# KEŞLƏ ŞƏHİDLƏR XİYABANINI ZİYARƏT

# VISIT TO KESHLA MARTYRS' ALLEY




*Rektor İradə Xəlilova*

Sentyabrın 27-də Xəzər Universitetinin rəhbərliyi, əməkdaşları və bir qrup tələbəsi Anım Günü münasibətilə Keşlə Şəhidlər Xiyabanını ziyarət edərək, İkinci Qarabağ müharibəsində Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş şəhidlərimizin əziz xatirəsini yad etmiş, məzarları üzərinə gül düzmüşlər.

On September 27, Khazar University administration, staff members and students laid flowers at the graves of the Patriotic War martyrs in Keshla Alley of Martyrs and paid tribute to their memory on the occasion of Remembrance Day.



## NAİLƏXANIM MUZEYİ TƏQDİM EDİR: "TARİXDƏ İZ SALAN, AZƏRBAYCAN MƏDƏNİYYƏTİNƏ TÖHFƏ VERƏN QADINLAR" SERİYASININ NÖVBƏTİ KİTABI

## NAILEKHANIM MUSEUM PRESENTS: THE NEXT BOOK OF THE SERIES" WOMEN WHO MADE A MARK IN HISTORY AND CONTRIBUTED TO AZERBAIJANI CULTURE"




# "QAÇAQ HƏCƏR"

Seriyanın "Qaçaq Həcər" adlı 5-ci kitabı Xəzər Universiteti Nəşriyyatında çapdan çıxmışdır. Kitabın müəllifi Təhminə Əsgərovadır.

Kitab xalq qəhrəmanı Qaçaq Nəbinin həyat yoldaşı və silahdaşı Həcər Xanalı qızına həsr olunmuşdur. "Aslanın erkəyi, dişisi olmaz" bölümündə müəllif iyirmi ildən artıq at belində qəhrəmanlıq səhifələri ilə dolu həyat yaşamış Həcərin adının igidlik və qorxmazlıq rəmzi kimi tarixə düşdüyünü nəzərə çatdırır.

Kitabın "Dastanlaşan ömür", "Ədəbiyyat və incəsənətdə Nəbi-Həcər obrazı" bölümlərində Təhminə Əsgərova Nəbi və Həcər haqqında həm şifahi və bədii ədəbiyyatda, həm də aşıq yaradıcılığında, heykəltəraşlıqda yaradılmış çoxlu əsərlər, həmçinin sənədli və bədii filmlər haqqında ətraflı məlumat verir. Kitabda müvafiq fotoşəkillər də yer almışdır.

# "QACHAQ HAJAR"

The 5th book of the series entitled "Qachaq Hajar" was published by Khazar University Publishing House. The author of the book is Tahmina Asgarova.

The book is dedicated to Hajar Khanali, the wife and comrade-in-arms of the national hero Qachaq Nabi. In the chapter entitled "Male or female, a lion is a lion", the author points out that the name of Hajar, who lived a life full of heroic pages on horseback for more than twenty years, went down in history as a symbol of bravery and fearlessness.

In the chapters of the book "A life turned into an epic" and "The Image of Nabi-Hajar in Literature and Art", Tahmina Asgarova provides detailed information about Nabi and Hajar in folk literature and fiction, in ashuq and sculptural works, as well as in documentaries and feature films. The book also contains relevant photographs.



## "DÜNYA" MƏKTƏBİNİN MƏZUNU OLMUŞ HÜQUQŞÜNAS PREZİDENT ADMİNİSTRASİYASINDA YÜKSƏK VƏZİFƏYƏ TƏYİN EDİLİB

## "DUNYA" SCHOOL GRADUATE APPOINTED TO A HIGH POSITION IN THE PRESIDENTIAL ADMINISTRATION

Xəzər Universiteti "Dünya" məktəbinin 2011-ci il məzunu, Harvard Universitetinin Hüquq fakültəsinin məzunu Araz Poladov Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Qanunvericilik və hüquq siyasəti şöbəsinin Qanunvericiliyin inkişafı sektorunun müdiri vəzifəsinə təyin edilib.

Araz Poladov 2016-cı ildə Bakı Dövlət Universitetinin hüquqşünaslıq ixtisası üzrə bakalavr pilləsini, 2017-ci ildə Vyana Universitetində Avropa və beynəlxalq biznes hüququ üzrə, 2019-2020-ci illərdə isə Harvard Universitetində hüquq üzrə magistr pilləsini (LLM) bitirib.

Araz Poladov əmək fəaliyyətinə 2017-ci ildə Bakı Dövlət Universitetində müəllim kimi başlayıb, eyni zamanda, "Baker McKenzie CIS Limited" şirkətinin Azərbaycan Respublikasındakı filialında təcrübəçi hüquqşünas kimi fəaliyyət göstərib, 2018-2019-cu illərdə "AZİP Hüquq Firması" MMC-də hüquqşünas, 2020–2021-ci illərdə isə idarəedici hüquqşünas kimi fəaliyyətini davam etdirib. O, 2021-2023-cü illərdə Böyük Britaniya və Şimali İrlandiya Birləşmiş Krallığının paytaxtı Londonda "Shearman and Sterling" hüquq şirkətində hüquqşünas vəzifəsində çalışıb.

Araz Poladov 2022-ci ildən hüquq üzrə fəlsəfə doktorudur.

*AZƏRTAC* bu barədə xəbər yayımlayıb:

Araz Poladov, a 2011 graduate of the Khazar University "Dunya" school, a graduate of the Law Faculty of Harvard University, was appointed as the head of the Legislation Development Sector of the Legislation and Legal Policy Department of the Presidential Administration of the Republic of Azerbaijan.

Araz Poladov graduated from the Baku State University with a bachelor's degree in jurisprudence in 2016, and obtained Master of Law degree (LLM) in European and International Business Law from the University of Vienna in 2017, and from the Harvard University in 2019-2020.

Araz Poladov started his career as an instructor at Baku State University in 2017, at the same time he worked as an intern lawyer at the branch of "Baker McKenzie CIS Limited" in the Republic of Azerbaijan, in 2018-2019 he was a lawyer at "AZIP Law Firm" LLC, In 2020-2021, he continued to work as a managing lawyer. In 2021-2023, he worked as a lawyer at the "Shearman and Sterling" law firm in London, the capital of the United Kingdom of Great Britain and Northern Ireland.

Araz Poladov is a PhD in law since 2022.

*AZERTAC* has published news about it:

*https://azertag.az/xeber/harvard_huquq_mektebinin_mezunu_prezident_administrasiyasinda_yuksek_vezifeye_teyin_edilib-2744113*

# BAKI "DÜNYA" MƏKTƏBİNİN VƏ SUMQAYIT "DÜNYA" MƏKTƏBİNİN ŞAGİRDLƏRİ ABŞ-IN NYU -YORK ŞƏHƏRİNDƏ KEÇİRİLMİŞ BEYNƏLXALQ KOPERNİK RİYAZİYYAT OLİMPİADASININ QALİBLƏRİ ARASINDA



*Mehrab Əlizadə*

Xəzər Universiteti Bakı "Dünya" Məktəbinin və Sumqayıt "Dünya" Məktəbinin şagirdləri Azərbaycan komandasının tərkibində 2023-cü il iyulun 9-13-də ABŞ-ın Nyu-York şəhərindəki Kolumbiya Universitetində keçirilmiş Beynəlxalq Kopernik Riyaziyyat Olimpiadasında uğurla çıxış edərək, qaliblər sırasında yer almışlar.

Mükafatlandırma tədbirində, nəticələrə əsasən, Sumqayıt "Dünya" Məktəbinin X sinif şagirdi Mehrab Əlizadə Qızıl medala, Bakı "Dünya" məktəbinin şagirdləri - Alpay İsmayıl (VIII sinif İB) Gümüş medala, Cavad Hacıyev (IX sinif İB) Bürünc medala, Suat Mehdiyev (V sinif İB) və Dəniz Qurbanzadə (V sinif İB) Fəxri Fərmana layiq görülüblər.

Azərbaycan Respublikasının ABŞ-dakı səfiri Xəzər İbrahim videoçıxış ilə iştirakçıları və Azərbaycan komandasını təbrik edib.

"Dünya" məktəblərinin şagirdlərinə daim uğurlar arzu edirik.

# STUDENTS OF BAKU "DUNYA" SCHOOL AND SUMGAYIT "DUNYA" SCHOOL ARE AMONG THE WINNERS OF THE INTERNATIONAL COPERNICUS MATHEMATICS OLYMPIAD HELD IN NEW YORK, USA

The students of Khazar University Baku "Dunya" School and Sumgayit "Dunya" School participated successfully in the International Copernicus Mathematics Olympiad held at Columbia University in New York City, USA on July 9-13, 2023, as part of the Azerbaijani team and were among the winners.

According to the results, Mehrab Alizadeh, a 10th-grade student of Sumgayit "Dunya" School, was awarded a gold medal, students of Baku "Dunya" School - Alpay Ismayil (8th grade IB) got a silver medal, Javad Hajiyev (9th grade IB) got a bronze medal, Suat Mehdiyev (5th grade IB) and Deniz Gurbanzade (5th grade IB) were awarded the Certificate Of Honor.

Ambassador of the Republic of Azerbaijan to the United States Khazar Ibrahim congratulated the participants and the Azerbaijani team with a video speech.

We wish the students of "Dunya" schools every success.



*Alpay İsmayıl*



*Cavad Hacıyev*



*Suat Mehdiyev*



*Dəniz Qurbanzadə*





*Sebnem Sahin*

## XƏZƏR UNİVERSİTETİ VƏ BMT-NİN İNKİŞAF PROQRAM AZƏRBAYCAN OFİSİNİN BİRGƏ TƏDBİRİ

## A JOINT ROUND-TABLE EVENT OF KHAZAR UNIVERSITY AND UNDP OFFICE IN AZERBAIJAN

İyulun 5-də Xəzər Universiteti və BMT-nin İnkişaf proqramının (UNDP) Azərbaycan ofisinin "Regional Trendlərin Azərbaycan təsiri: İqtisadi Analiz" mövzusunda birgə tədbiri keçirmişdir. UNDP-nin region üzrə baş iqtisadçısı Dr. Sebnem Sahin mövzu üzrə araşdırmasını təqdim etmişdir. Araşdırmada dövlət, istehlakçı və dövlətin ticarət əməkdaşları arasında iqtisadi münasibətləri müəyyənləşdirən Qlobal Ticarət Analiz Layihəsi (Global Trade Analysis Project) multi-sektor modelindən istifadə olunmuşdur.

Təqdimatdan sonra makroiqtisadi modelləşmə üzrə mütəxəssis iştirakçılarla mövzu ətrafında müzakirələr aparılmışdır.

On the 5th of July, Khazar University and UNDP office in Azerbaijan held a joint event on "Impact of the Regional Trends on Azerbaijan: An Economy-wide Analysis". UNDP regional senior economist, Dr. Sebnem Sahin presented her research on the topic with rigorous models such as multi-sector Global Trade Analysis Project (GTAP) model which specifies the economic relationships between Government, Consumer, Produce and Trade Partners as simultaneous equations.

The presentation was followed by intense discussions around the topic with participating experts on macroeconomic modeling.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ DR. ORXAN VƏLİYEV "*IMGELEM*" JURNALINDA SİYASİ ELM ÜZRƏ SAHƏ REDAKTORU OLARAQ ÇALIŞMAĞA BAŞLAMIŞDIR

## POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT HEAD DR.ORKHAN VALIYEV JOINED "*IMGELEM*" AS FIELD EDITOR FOR POLITICAL SCIENCE

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev 2023-cü ilin iyun ayından etibarən Türkiyənin Ulakbim indeksində yer alan "*İmgelem*" jurnalında siyasi elm üzrə sahə redaktoru olaraq çalışmağa başlamışdır. Jurnal web of science and scopus elm metrik bazalarına müraciət etməklə bu qərara gəlmişdir.

Head of Khazar University Political Sciences and Philosophy Department Dr.Orkhan Valiyev joined "*Imgelem*" journal, which is included in Türkiye's Ulakbim index, as a field editor for political science from June 2023. The journal arrived at this decision by consulting the web of science and scopus science metrics databases.

***https://dergipark.org.tr/en/pub/imgelem***

# DÖVLƏT MƏŞĞULLUQ AGENTLİYİNDƏ GÖRÜŞ

# MEETING AT AZERBAIJAN PUBLIC EMPLOYMENT AGENCY



*Famil Nəcibli*

İyulun 7-də Xəzər Universitetinin Karyera Mərkəzinin meneceri Səbinə Allahverənova və assistenti Mustafa Həsənli Dövlət Məşğulluq Agentliyinin (DMA) təşkil etdiyi tədbirdə iştirak etdilər. Görüşə Azərbaycanın digər univeritetlərinin Karyera qurumlarının əməkdaşları da dəvət olunmuşdu.

DMA-nın müdür müavini Lalə Rəsulova Vəlizadə agentliyin son bir il ərzindəki fəaliyyəti, İşsiz şəxslərlə iş departamentinin şöbə müdiri Famil Nəcibli dövlət səviyyəsində görülən işlər və xidmətlər və Mərkəzi karyera filialının müdiri Toğrul Ələkbərov yeni tətbiq olunan sistem və mexanizmlər haqqında məlumat verərək, əməkdaşlığın əhəmiyyətli rol oynadığını qeyd etdilər.

DMA-nın karyera mərkəzlərinə tövsiyə etdiyi əməkdaşlıq istiqamətləri ilə bağlı müzakirələr aparıldı.

On July 7, Khazar University Career Center manager Sabina Allahveranova and her assistant Mustafa Hasanli took part in the event organized by the Public Employment Agency (PEA). Employees of Career Institutions of other universities of Azerbaijan were also invited to the meeting.

Lala Rasulova Valizadeh, deputy director of PEA, informed about the activities of the agency over the past year, Famil Najibli, head of the Department for Work with Unemployed Persons spoke about the works and services done at the state level and Toghrul Alakbarov, head of the Central Career branch, gave information about the newly applied systems and mechanisms, and they emphasized that cooperation is of great importance.

Discussions were held regarding the directions of cooperation recommended by PEA to career centers.



# UNİVERSİTETLƏRİN BEYNƏLXALQ ƏLAQƏLƏR VƏ ƏCNƏBİ TƏLƏBƏLƏRLƏ İŞ ÜZRƏ RƏHBƏR ŞƏXSLƏRİNİN GÖRÜŞÜ

# MEETING OF HEADS OF UNIVERSITIES ON INTERNATIONAL RELATIONS AND WORK WITH FOREIGN STUDENTS



*Vlad Vernygora, ADA Universitetinin əməkdaşı Günay Ziyadova, Turan Əlizadə*

İyulun 7-də Elm və Təhsil Nazirliyinin təşkilatçılığı ilə ADA Universitetində Bakıda yerləşən ali təhsil müəssisələrinin beynəlxalq əlaqələr və əcnəbi tələbələrlə iş üzrə rəhbər şəxslərinin görüşü keçirilib.

Görüşdə Elm və Təhsil Nazirliyi, Təhsildə Keyfiyyət Təminatı Agentliyi, Milli Erasmus+ ofisi, eləcə də 32 ali təhsil müəssisəsinin əməkdaşları, o cümlədən Xəzər Universitetinin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora və Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Turan Əlizadə iştirak etmişlər.

Tədbirdə əcnəbi tələbələrin cəlbi ilə bağlı təcrübə mübadiləsi aparılmışdır.

Elm və Təhsil Nazirliyinin Beynəlxalq əməkdaşlıq şöbəsinin müdiri Tural Əhmədov və sektor müdiri Müjdat Həsənov əcnəbi tələbələrin Azərbaycanda təhsili ilə bağlı ətraflı məlumat vermişlər. Universitetlərin nümayəndələri, həmçinin Xəzər Universitetindən prorektor Vlad Vernygora əcnəbi tələbələrin qəbulu mövzusunda təqdimatla çıxış etmişlər.

Çıxışlardan sonra iştirakçıları maraqlandıran suallar ətrafında müzakirələr aparılmışdır.

On July 7, the Ministry of Science and Education organized a meeting of heads of higher education institutions in Baku on international relations and work with foreign students at ADA University.

The meeting was attended by employees of the Ministry of Science and Education, Education Quality Assurance Agency, National Erasmus+ office, as well as 32 higher education institutions, including vice-rector for International Relations at Khazar University Vlad Vernygora and coordinator of International Relations Department Turan Alizadeh.

At the event, experience was exchanged regarding the involvement of foreign students.

The head of the International Cooperation Department of the Ministry of Science and Education Tural Ahmadov and the head of the sector Mujdat Hasanov gave detailed information about the education of foreign students in Azerbaijan. Representatives of universities, as well as Khazar University vice-rector Vlad Vernygora made a presentation on the admission of foreign students.

After the speeches, discussions were held on questions of interest to the participants.

# ASAAİ: "HİND OKEANININ GEOSİYASƏTİ" MÖVZUSUNDA AÇIQ MÜHAZİRƏ

# OPEN LECTURE ON "GEOPOLITICS OF THE INDIAN OCEAN" IN IAPAS



Şefik Osman

İyulun 10-da Xəzər Universitetinin Asiya-Sakit okean və Afrika Araşdırmaları İnstitutu (ASAAİ) tərəfindən Florida Beynəlxalq Universitetinin (ABŞ) tədqiqatçısı Dos. Şefik Osman`ın "Hind okeanının geosiyasəti" mövzusunda açıq mühazirəsi təşkil olundu. Tədbirdə universitetin rəhbərliyi və əməkdaşları, tələbələr iştirak edirdilər.

Universitetin Beynəlxalq əlaqələr üzrə prorektoru Vlad Vernygora mühazirəçini iştirakçılara təqdim etdi. Mühazirədən sonra müzakirələr keçirildi və suallar cavablandırıldı. Dos.Şefik Osman`a hədiyyə təqdim olundu.



On July 10, the Institute of Asia-Pacific and African Studies (IAPAS) of Khazar University arranged an open lecture by Assoc.Prof. Shefik Osman, researcher of Florida International University (USA) on "Geopolitics of the Indian Ocean". The administration and employees of the university, students participated in the event.

Vlad Vernygora, vice-rector for International Relations of the University, introduced the lecturer to the participants. After the lecture, discussions were held and questions were answered. Asoc. Prof. Shefik Osman was presented a gift.

*İradə Xəlilova*




Doğan Saltaş Vlad Vernygora

# ARDAHAN UNİVERSİTETİ "XƏZƏR"DƏ

# ARDAHAN UNIVERSITY STAFF AT KHAZAR UNIVERSITY

İyulun 18-də Türkiyənin Ardahan Universitetinin əməkdaşları – prorektor Prof. Dr. Mustafa Yıldız, Beynəlxalq əlaqələr ofisinin koordinatoru Dr. Doğan Saltaş və assistent Nurgül Moldayeva Xəzər Universitetində oldular. Qonaqlar universitetin rektoru Dos. İradə Xəlilova, Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora, İctimai əlaqələr və media üzrə direktor Əlövsət Əmirbəyli və Beynəlxalq əlaqələr ofisinin koordinatoru Fatimə Vəliyeva ilə görüşdülər. Görüşdə iki universitet arasında əməkdaşlıq məsələləri müzakirə edildi.

Görüşün sonunda tərəflər arasında hədiyyə mübadiləsi oldu.



Mustafa Yıldız İradə Xəlilova



Nurgül Moldayeva

On July 18, staff members of Ardahan University of Türkiye-vice – rector Prof.Dr Mustafa Yildiz, coordinator of the Office of International Relations Dr. Doghan Saltash and assistant Nurgul Moldayeva visited Khazar university. The guests met with university rector Assoc. Prof. Irada Khalilova, vice-rector for International Relations Vlad Alex Vernygora, Public Relations and Media director Alovsat Amirbeyli and coordinator of the International Relations Office Fatima Valiyeva. The meeting covered cooperation issues between the two universities.

At the end of the meeting, gifts were exchanged between the parties.

# "XƏZƏR"İN ƏMƏKDAŞLARI ELMİ EKSPEDİSİYADA

Təbiət elmləri, sənət və texnologiya yüksək təhsil fakültəsinin dekan müavini b.ü.f.d. Məhəmməd Eldarov və Həyat elmləri departamentinin dosenti Cavid Ocaqi "Azərbaycanda mədəni bitkilərin yabanı əcdadlarının "in situ" yayılması və populyasiya strukturunun öyrənilməsi" məqsədilə 2023-cü il iyulun 17-24-də Azərbaycanın cənub bölgəsinə (Cəlilabad, Masallı, Lənkəran, Astara, Lerik), Dağlıq Şirvan və Böyük Qafqazın şimal bölgələrinə (Şamaxı, İsmayıllı, Qəbələ, Oğuz, Şəki) elmi ekspedisiyada olmuşlar.

Ekspedisiya zamanı 25 marşrut üzrə 100-dən çox mədəni bitkilərin yabanı əcdadlarına aid olan (buğda, arpa, yulaf, sorgo, vələmir, çovar, lərgə, qarayonca, gülülcə, xaşa, üçyarpaq yonca, gəvən, yabanı soğan, yabanı yerkökü, yabanı alma və s.) bitkilərin populyasiyaları tədqiq olunmuş və bir çox bitkilərin isə yeni yayılma arealları müəyyənləşdirilmişdir.

Toplanmış bitkilərin məlumatları beynəlxalq deskriptor forması üzrə qeyd olunmuş və üçölçülü məkan göstəriciləri GPS cihazı vasitəsilə müəyyən edilmişdir. Ekspedisiya zamanı in situ halda populyasiyalarının yayılma strukturu Beynəlxalq Təbiətin və Təbii Sərvətlərin Mühafizəsi Birliyinin meyarları (kateqoriya və kriteriyalar) əsasında öyrənilmişdir.



*Məhəmməd Eldarov* *Cavid Ocaqi*

# KHAZAR UNIVERSITY EMPLOYEES ON A SCIENTIFIC EXPEDITION

On July 17-24, deputy dean of the Graduate School of Science, Art and Technology, Doctor of Philosophy in Biology, Mahammad Eldarov, and Associate Professor of the Department of Life Sciences, Javid Ojagi, visited the southern region of Azerbaijan (Jalilabad, Masalli, Lankaran, Astara, Lerik), Mountainous Shirvan and the northern regions of the Greater Caucasus (Shamakhi, Ismayilli, Gabala, Oguz, Sheki) to study the in situ distribution and population structure of wild ancestors of cultivated plants in Azerbaijan.

During the expedition, the populations of plants belonging to the wild ancestors of more than 100 cultivated plants (wheat, barley, oats, sorghum, oatmeal, rye, vicia, alfalfa, stainfoin, Trifolium, Astragalus, wild onion, wild carrot, wild apple, etc.) were studied on 25 routes, and new distribution areas of many plants were determined.

Data of the collected plants were recorded on the international descriptor form and three-dimensional spatial indicators were determined using a GPS device. In situ population distribution structure was studied based on the criteria (category and criteria) of the International Union for Conservation of Nature and Natural Resources.

# PROF. AKAD. HAMLET İSAXANLININ ANKARAYA İŞGÜZAR SƏFƏRİ

## UFUK UNİVERSİTETİNDƏ

## AT UFUK UNIVERSITY

İyulun 27-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, East West (Tbilisi, Gürcüstan) Universitetinin qurucusu Prof. Akad. Hamlet İsaxanlı, East West Üniversitetinin qurucusu Prof. Teimuraz Khurodze və Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli Ankarada yerləşən Ufuk Universitetində oldular.

Ufuk Universitetinin rektoru, Prof. Dr. Mete Dolapçı, Tibb fakültəsinin dekanı Prof. Dr. Ahmet Hakan Haliloğlu və Doç.Dr. Ergenekon Sav-

On July 27, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, founder of East West (Tbilisi, Georgia) University Prof. Acad. Hamlet Isakhanli, East West University founder Prof. Teimuraz Khurodze and Alovsat Amirbeyli, director of Public Relations and Media of Khazar University, visited Ufuk University, Ankara.

Rector of Ufuk University, Prof. Dr. Mete Dolapchı, dean of the School of Medicine Prof. Dr. Ahmet Hakan Haliloghlu and Assoc. Prof. Dr. Ergenekon Savrun warmly welcomed the guests



*Ahmet Hakan Haliloğlu, Mete Dolapçı, Hamlet İsaxanlı*

# PROF. ACAD. HAMLET ISAKHANLI`S BUSINESS TRIP TO ANKARA



*Ergenekon Savrun, Ahmet Hakan Haliloğlu, Mete Dolapçı, Hamlet İsaxanlı, Teimuraz Khurodze, Əlövsət Əmirbəyli*

run qonaqları səmimi qarşılayaraq, onları Ufuk Universitetinin yaradılması və hazırkı fəaliyyəti haqqında geniş məlumatlandırdı.

Prof. Akad. Hamlet İsaxanlı Xəzər Universiteti və qurucu üzvlərdən biri olduğu Gürcüstanın Tbilisi şəhərində yeni fəaliyyətə başlayan East-West Universiteti və orada yeni fəaliyyətə başlayan Tibb fakültəsi haqqında ətraflı məlumat verdi.

Görüşdə hər iki tərəf gələcəkdə qarşılıqlı mübadilə proqramlarının həyata keçirilməsinin məqsədəuyğun olduğunu vurquladılar və Prof. Akad. Hamlet İsaxanlı və Prof. Dr. Mete Dolapçı müqavilə imzaladılar. Həmçinin, Prof. Akad. Hamlet İsaxanlı, Prof. Teimuraz Khurodze və Prof. Dr. Mete Dolapçı arasında anlaşma protokolu imzalandı. Hamlet İsaxanlı Mete Dolapçı`ya Azərbaycana aid Dostluq Plaketini təqdim etdi. Sonra qonaqlar Ufuk Universitetinin tibb laboratoriyaları və digər tədris mərkəzləri ilə tanış oldular.

and informed them about the establishment and current activities of Ufuk University.

Prof. Acad. Hamlet Isakhanli gave detailed information about Khazar University and East-West University in Tbilisi, Georgia, of which he is one of the founding members, and the newly established School of Medicine.

At the meeting, both sides emphasized the expediency of implementing mutual exchange programs in the future, and Prof. Acad. Hamlet Isakhanli and Prof. Dr. Mete Dolapchı signed an agreement. Also, a memorandum of understanding was signed between Prof. Acad. Hamlet Isakhanli, Prof. Teimuraz Khurodze and Prof. Dr. Mete Dolapchı. Hamlet Isakhanli presented the Friendship Plaque of Azerbaijan to Mete Dolapchi. Then the guests got acquainted with Ufuk University's medical laboratories and other training centers.



*Əlövsət Əmirbəyli, Çetin Almas, Musa Yıldız, Hamlet İsaxanlı, Teimuraz Khurodze*

# GAZİ UNİVERSİTETİNDƏ

# AT GAZI UNIVERSITY

İyulun 27-də Ankarada Gazi Universitetinin rektoru Prof. Dr. Musa Yıldız, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, East-West (Tbilisi, Gürcüstan) Universitetinin qurucusu Prof. Akad. Hamlet İsaxanlı, East-West Üniversitetinin qurucusu Prof. Teimuraz Khurodze və Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəylini səmimi qarşılayaraq, Ankarada görüşdən çox məmnun olduğunu bildirdi.

On July 27, Gazi University rector Prof. Dr. Musa Yıldız warmly welcomed Prof. Acad.Hamlet Isakhanlı, founder of Khazar University and chairman of the Board of Directors and Trustees, founder of East-West University (Tbilisi, Georgia), Prof. Teimuraz Khurodze, founder of East-West University and Alovsat Amirbeyli, director of Public Relations and Media of Khazar University, stating that he was very pleased with the meeting in Ankara.

Prof. Acad. Hamlet Isakhanli gave detailed

Prof. Akad. Hamlet İsaxanlı Xəzər Universiteti və East-West Universiteti və oradakı Tibb fakültəsi haqqında geniş məlumat verdi.

Prof. Dr. Musa Yıldız qarşılıqlı olaraq bu günə kimi Xəzər Universiteti ilə görülən işlərin əhəmiyyətini və əməkdaşlığın gələcəkdə də davam etdirilməsinin vacibliyini nəzərə çatdırdı. O, Tbilisi şəhərində fəaliyyətə başlayan East-West Üniversiteti ilə də əlaqələrin qurulacağına əminliyini bildirdi.

Prof. Akad. Hamlet İsaxanlı universitet adından Prof. Dr. Musa Yıldız`a Azərbaycana aid Dostluq Plaketini, Musa Yıldız Gazi Universitetinin Xatirə plaketini Hamlet İsaxanlıya təqdim etdi. Sonra Musa Yıldız tərəfindən Gazi Üniversitetində ənənəyə çevrilmiş ağac əkilməsini təsdiq edən, universitetin rektoru və Ankara Şəhər Orman Müdirliyi tərəfindən imzalanan sertifikatlar Hamlet İsaxanlı, Teimuraz Khurodze və Əlövsət Əmirbəyliyə təqdim olundu. Sonda qonaqlar Gazi Universitetinin professoru Çetin Almas`ın müşayiəti ilə universitetlə tanış oldular.





information about Khazar University and East West University, as well as the School of Medicine here.

Prof. Dr. Musa Yildiz mutually emphasized the importance of the work done with Khazar University so far and the importance of continuing cooperation in the future. He expressed confidence that ties will also be established with the East-West University, which has started its activities in Tbilisi.

Prof. Acad.Hamlet Isakhanlı presented the Azerbaijan Friendship Plaque to Prof. Dr. Musa Yıldız on behalf of the university, and Musa Yıldız presented the Commemorative Plaque of Gazi University to Hamlet Isakhanli. Musa Yıldız then presented the certificates signed by the rector of the university and the Ankara Directorate of Provoncial Agriculture and Forestry, confirming the tree planting that has become a tradition at Gazi University, to Hamlet Isakhanli, Teimuraz Khurodze and Alovsat Amirbeyli.

In the end, the guests got acquainted with the university accompanied by Professor Chetin Almas of Gazi University.

# BAŞKENT UNİVERSİTETİNDƏ

# AT BASHKENT UNIVERSITY

İyulun 27-də Ankarada Başkent Universitetinin toplantı salonunda Bakıdan və Gürcüstandan gələn qonaqlarla rəsmi görüş keçirildi. Görüşdə Başkent Universitetinin rektoru, Prof. Dr. İ. Haldun Müderrisoğlu, rektor yardımcıları: Prof. Dr. Abdülkadir Varoğlu, Prof. Dr. Füsun Eyidoğan, Tibb fakültəsinin dekanı Prof. Dr. Derya Akaydın-Aldemir, Eğitim fakültəsinin dekanı Prof. Dr. Sadegül Akbaba Altun, Uluslararası ilişkilər və dəyişim proqramları üzrə koordinatör İrem Aşçılı, Uluslararası xəstə departamentinin koordinatoru Dr. Turhan Namazov iştirak etdilər.

On July 27, an official meeting with guests from Baku and Georgia was held in the meeting hall of Bashkent University. The rector of Bashkent University, Prof. Dr. Haldun Müderrisoğlu, vice-rectors Prof. Dr. M. Abdülkadir Varoğlu, Prof. Dr. Füsum Eyidoğan, dean of the Faculty of Medicine Prof. Dr. Derya Akaydyn-Aldemir, dean of the Faculty of Education Prof. Dr. Sadegül Akbaba Altun, coordinator of International Relations and Exchange Programs Irem Ashçılı, coordinator of the International Patient Department Turhan Namazov took part in the meeting.



*Teimuraz Khurodze, İ. Haldun Müderrisoğlu, Hamlet İsaxanlı*



*Füsun Eyidoğan, Derya Akaydın-Aldemir, Teimuraz Khurodze, Əlövsət Əmirbəyli, İ. Haldun Müderrisoğlu, Hamlet İsaxanlı, Sadegül Akbaba Altun, Abdülkadir Varoğlu*

Başkent Universitetinin rektoru Prof. Dr. Haldun Müderrisoğlu Prof. Akad. Hamlet İsaxanlıya xitabən 2 ay öncə Bakı şəhərində olarkən ona və rəhbərlik etdiyi nümayəndə heyətinə göstərdiyi böyük qonaqpərvərlikdən dolayı təşəkkür etdi və Ankara şəhərində yenidən görüşməkdən məmnun olduğunu bildirərək, Başkent Universiteti haqqında geniş məlumat verdi. Universitetin fəaliyyətini əks etdirən film nümayiş olundu, professor-müəllim heyətinin əldə etdiyi nailiyyətlərdən danışıldı.

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, East-West Universitetinin qurucusu Prof. Akad Hamlet İsaxanlı Xəzər Universitetinin fəaliyyətli və Tbilisi şəhərində yeni yaradılmış East-West Universitetinin Tibb fakültəsi haqqında məlumat verdi. O, gələcəkdə hər iki universitetin fakültə, departament və digər bölümləri arasında əlaqələrin inkişaf etdiriləcəyinə, elmi və pedaqoji əlaqələrin qurulacağına əminliyini bildirdi.

Sonra Hamlet İsaxanlı Azərbaycana aid Dostluq Plaketini rektor İ. Haldun Müderrisoğluna təqdim etdi. Haldun Müderrisoğlu da qarşılıqlı olaraq qonaqlara Başkent Ünivеrsitetinin hədiyyələrini verdi. Səmimi keçən görüşdə East-West Üniversitetinin qurucusu Teimuraz Khurodze və Xəzər Üniversitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli iştirak etdilər.

Addressing Prof. Acad. Hamlet Isakhanli, rector of Bashkent University Prof. Dr. Haldun Müderrisoğlu thanked him and the delegation headed by him for the hospitality while visiting Baku 2 months ago and expressed his pleasure to meet again in Ankara and gave detailed information about Bashkent University. A film reflecting the activities of the university was shown, and the achievements of the teaching staff were discussed.

Founder of Khazar University, chairman of its Board of Directors and Trustees, founder of East-West University, Prof. Acad. Hamlet Isakhanli gave information about Khazar University's activity and the School of Medicine of the newly established East-West University in Tbilisi. He expressed confidence that in future the relations between faculties, departments of both universities will be developed and scientific and pedagogical ties will be established.

Then Hamlet Isakhanli presented the Azerbaijan Friendship Plaque to rector Haldun Müderrisoglu. Haldun Müderrisoğlu also gave the guests the gifts of Bashkent University. Teimuraz Khurodze, founder of East-West

University and Alovsat Amirbeyli, director of Public Relations and Media at Khazar University, attended the meeting held in a friendly atmosphere.

# BAŞKENT UNİVERSİTETİNDƏ MEHMET HABERAL İLƏ GÖRÜŞ

# MEETING WITH MEHMET HABERAL AT BASHKENT UNIVERSITY



*Mehmet Haberal     Hamlet İsaxanlı*

İyulun 28-də Başkent Universitetinin qurucusu və Yönətim Üst Kurulu Başqanı Prof. Dr. Mehmet Haberal`ın şəxsi dəvəti ilə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı və rəhbərlik etdiyi heyət Başkent Universitetinə ikinci dəfə dəvət olundu.

Başkent Universitetinin qurucusu Mehmet Haberal qonaqları universitetin girişində qarşılayaraq, səmimi şəkildə salamladı. Öncə o, qonaqları özünə məxsus olan şəxsi əşyaları yerləşdirilmiş müzey ilə tanış etdi, öz həyatı və fəaliyyəti, yaradıcılığı haqqında məlumat verdi, orqan nəqli sahəsində gördüyü misilsiz işlərdən və Başkent Universitetinin yaradılmasından danışdı.

Mehmet Haberal ilə Hamlet İsaxanlının görüşündə Başkent Universitetinin rektoru Prof. Dr. Haldun Müderrisoğlu, akademik işlər üzrə prorektorlar Prof.

On July 28, Prof. Acad.Hamlet Isakhanli, founder of Khazar University and chairman of its Board of Directors and Trustees, and a delegation led by him were invited to Bashkent University for the second time upon the personal invitation of Prof. Dr. Mehmet Haberal, founder and chief of Primary Executive Board of Bashkent University.

Proqramın yekunu olaraq, qonaqlar Beynəlxalq əlaqələr üzrə prorektor Vlad Vernygora və İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov tərəfindən sertifikatla təltif edildilər.

Fatima Valiyeva, professors of Bragança Technical University attended the meeting.

On July 20, the institute's deputy director Elnur Nasirov, Elshan Abdullayev and the delegation of Bragança Technical University visited Zardab region to take samples from the sediments of the Kura River and the soil on the bank.

Aytac Misgarli, deputy director of the Library Information Center, introduced the guests to the activities of the Nailekhanim Culture Center. In the center, they were informed about the exhibits reflecting the life and activities of the outstanding educator Nailekhanim Isayeva.

In accordance with the program, Elshan Abdullayev and Portuguese professors visited the central laboratory of "Azersu" and discussed the planned project.

On the last day of the program, with the organization of the International Relations Office, the guests visited "Shah dili" in Zira, which belongs to the Absheron National Reserve.

At the end of the program the guests were presented certificates by Vlad Vernigora, vice-rector for International Relations, and Jeyhun Mammadov, dean of the School of Economics and Management.



# “XƏZƏR”İN TƏLƏBƏLƏRİ ERASMUS+ TƏLƏBƏ
# KHAZAR UNIVERSITY STUDENTS IN ERASMUS+ STUDENT



## BRAQANÇA POLİTEXNİK İNSTİTUTUNDA UNUDULMAZ TƏCRÜBƏM

## MY UNFORGETTABLE EXPERIENCE AT POLYTECHNIC INSTITUTE OF BRAGANÇA

Mən Xəzər Universitetinin Kimya mühəndisliyi ixtisası üzrə 3-cü kurs tələbəsiyəm. Beynəlxalq Erasmus+ Mobillik proqramının tələbəsi kimi Braqança Politexnik İnstitutuna qəbul olundum.

Erasmus+ proqramında iştirakımın əsas səbəbi tanınmış bir universitetdə təhsil almaq və başqa bir akademik sistemlə tanış olmaq istəyi idi. Mühazirələrdə və digər ölkələrdən olan həmkarlarla müzakirələrdə iştirak etməklə əvvəllər yaxşı başa düşdüyümü hesab etdiyim mövzular üzrə yeni perspektivlər kəşf etdim. Dərslər, layihələr və müzakirələr mənim üçün yeni ideyalar və yanaşmaların yaranmasına səbəb oldu.

Erasmus+ təcrübəmin ən maraqlı tərəflərindən biri dünyanın hər yerindən gəlmiş insanlarla tanış olmaq imkanımın olması idi. Qısa müddət ərzində yeni sərgüzəştlərə başlayan, gizli yerləri kəşf edən və unudulmaz təcrübələri paylaşan, bir-birilə sıx bağlı olan beynəlxalq dost qrupunun bir hissəsi oldum.

Braqança universitetində altı aylıq təhsil və təcrübəm məni daha müstəqil, açıq fikirli və mədəni cəhətdən məlumatlı bir insana çevirdi. Mən həm akademik, həm də şəxsi cəhətdən inkişaf etdim, gələcək işlərimdə mənə faydalı ola biləcək dəyərli bacarıqlar və təcrübələr qazandım.

**Fatimə İbrahimova**

I am a junior student in Khazar University majoring in Chemical Engineering. I was admitted as student of International Erasmus+ Mobility at the Polytechnic Institute of Bragança.

The primary reason for my Erasmus+ journey was to study at a renowned university and experience a different academic system. As I attended lectures and engaged in discussions with international colleagues, I discovered fresh perspectives on subjects that I had previously thought were well understood. The classes, projects and discussions opened my mind to new ideas and approaches.

One of the most remarkable aspects of my Erasmus+ experience was the opportunity to meet people from all corners of the world. I quickly found myself becoming part of a close-knit group of international friends who embarked on adventures, explored hidden spots, and shared unforgettable experiences.

My six-month study and experience at the University of Bragança has transformed me into a more independent, open-minded and culturally aware individual. I have grown both academically and personally, gaining valuable life skills and experiences that will serve me well in my future endeavors.

**Fatima Ibrahimova**

# MÜBADİLƏ PROQRAMINDA
# EXCHANGE PROGRAM

## DÜNYANIN ƏN GÖZƏL ÖLKƏLƏRİNDƏN BİRİ OLAN İTALİYA

## ONE OF THE MOST AMASING COUNTRIES OF THE WORLD- ITALY



Mən, Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsində Neft-qaz mühəndisliyi ixtisasının 3-cü kurs tələbəsiyəm.

Erasmus+ Tələbə Mübadilə Proqramı vasitəsilə 2022-2023-cü tədris ilinin yaz semestrində İtaliyanın Tuscia Universitetində Mexanika mühəndisliyi ixtisası üzrə təhsilimi davam etdirmişəm.

İtaliyadakı proqramda iştirakım mənə bilik cəhətdən çox önəmli oldu. Təhsil proqramımın əsas hissəsini mühəndislik ixtisası tələbələri ilə birlikdə işləyərək keçirdim və bu da mənə təcrübə cəhətdən çox kömək etdi.

Mübadilə proqramı boyunca oradakı sosial həyatıma da vaxt ayırdım. Bacara bildiyim qədər dünyanın ən gözəl ölkələrindın biri olan İtaliyada səyahət etdim. İtaliya ilə yanaşı, Avropanın bir neçə gözəl ölkə və şəhərlərini də görmək imkanım oldu. Getdiyim hər yerdə yeni insanlarla tanış olub, gözəl anlar yaşadım.

Universitetin daxilində keçirilən tədbirlərə qatılmağa da vaxt tapırdım. Bunlardan ən yadda qalanı "İnternational Multi-Culti Day" oldu. Bu tədbirdə müxtəlif milli-mənəvi dəyərlərimizi nümayiş etdirərək, öz ölkəmi layiqincə təmsil etməyə çalışdım.

Ümumilikdə, cəmi bir semestrlik müddətə baxmayaraq, zəngin bilik və bacarıqlara yiyələndim.

**Seymur Mirzalıyev**

I am Seymur Mirzaliyev- the 3rd year student of Oil and Gas Engineering at the School of Science and Engineering of Khazar University.

Through the Erasmus+ Student Exchange Program, I continued my studies in the field of Mechanical Engineering at the University of Tuscia, Italy in the spring semester of the 2022-2023 academic year.

My participation in the program in Italy was very important for me academically. I spent the bulk of my study program working together with students majoring in engineering, which helped me a lot in terms of experience.

During the exchange program, I also made time for my social life there. As far as I could, I traveled in Italy, one of the most beautiful countries in the world. In addition to Italy, I had the opportunity to see several beautiful countries and cities in Europe. Everywhere I went, I met new people and had wonderful moments.

I also found time to attend events held in the University. The most memorable of these was "International Multi-Culti day". At this event, demonstrating our various national and moral values, I tried to represent my country worthily.

Overall, I acquired a wealth of knowledge and skills in just one semester.

**Seymur Mirzaliyev**

## COĞRAFİYA VƏ ƏTRAF MÜHİT DEPARTAMENTİNİN MÜDİRİ IPBES-İN PLENUMUNDA

## GEOGRAPHY AND ENVIRONMENT DEPARTMENT HEAD AT THE PLENUM OF IPBES

Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müdiri Dr. Rövşən Abbasov 2023-cü il avqustun 24-dən sentyabrın 5-dək Almaniyanın Bonn şəhərində IPBES-in (İnternational Panel on Ecosystem Services and Biodiversity) 10-cu plenumunda iştirak etmişdir. Qeyd edək ki, Rövşən Abbasov 2008-ci ildən IPBES Fənlərarası Ekspert Panelinin üzvü kimi bu təşkilatda çalışır.

Plenumda İnvaziv yad növlər və Ekosistem Dəyərləri üzrə iki qlobal qiymətləndirmə sənədi qəbul edilmişdir. Bundan başqa, Rövşən Abbasov Azərbaycan Milli Ekosistem Qiymətləndirmələri layihəsinin aparıcı müəllifi kimi UNEP nümayəndələri ilə də görüşmüşdür. IPBES-in növbəti plenumu 2024-cü ildə Namibiyada keçiriləcək.

On August 24-September 4, Khazar University Geography and Environment Department Head Dr. Rovshan Abbasov participated in the 10th plenum of IPBES (International Panel on Ecosystem Services and Biodiversity) in Bonn, Germany. It should be noted that Rovshan Abbasov has been working in this organization as a member of the IPBES Interdisciplinary Expert Panel since 2008.

Two global assessment documents on Invasive alien species and Ecosystem Values were adopted at this plenum. In addition, Rovshan Abbasov, as the lead author of the Azerbaijan National Ecosystem Assessments project, also met with UNEP representatives. The next IPBES plenum will be held in Namibia in 2024.




*Rövşən Abbasov IPBES-in sədri Ana Maria Hernandez Salgar ilə*

## XƏZƏR UNİVERSİTETİNİN TƏDQİQAT LAYİHƏSİ QALİB OLDU

## KHAZAR UNIVERSITY RESEARCH PROJECT ANNOUNCED AS WINNER



Həyat elmləri departamentinin tədqiqatçıları Dos. Cavid Ocaqi, Dos. Səidə Şərifova və b.ü.f.d. Məhəmməd Eldarovun 2023-cü ildə İsveç Kənd Təsərrüfatı Elmləri İnstitutu ilə birgə hazırladıqları "SORG4NOBAL: Baltik dənizi regionunda evtrofikasiya və pestisidlərlə çirklənmənin azaldılması üçün iqlim dəyişilmələrinə davamlı sorqonun introduksiyası" ("SORG4NOBAL: Introduction of climate-resilient sorghum for the mitigation of eutrophication and pesticide pollution in the Baltic Sea region") adlı beynəlxalq elmi-tədqiqat layihəsi İsveç Universiteti tərəfindən qalib elan olunmuş və maliyyələşdirilməsi qərarı verilmişdir.

Layihə işlərinin icrası ilə bağlı ilk birgə görüş 2023-cü il sentyabrın 5-7-də İsveçin Malmo şəhərində yerləşən İsveç Kənd Təsərrüfatı Elmləri İnstitutunda keçirilmişdir. Cavid Ocaqi və Səidə Şərifova həmin görüşdə iştirak etmiş, Xəzər Universiteti, layihənin Azərbaycan tərəfindən öhdəlikləri ilə bağlı məlumat verilmiş, müzakirələr aparılmışdır.

Üç gün davam edən görüşlərdə layihə iştirakçıları İsveç, Estoniya, Latviya və Ukraynadan olan mütəxəssislərlə yanaşı, İsveç, Danimarka və Niderland Krallığından tanınmış alimlər də iştirak etmiş, müxtəlif ölkələrin təcrübələri dinlənilmiş, gələcək planlar və birgə yeni layihələrin hazırlanması məsələləri müzakirə olunmuşdur.

Layihə ilə bağlı növbəti görüşlərin birinin Xəzər Universitetində keçirilməsi qərara alınmışdır.

The international research project "SORG4NOBAL: Introduction of climate-resilient sorghum for the mitigation of eutrophication and pesticide pollution in the Baltic Sea region", developed by researchers of the Department of Life Sciences Assoc. Prof. Javid Ojagi, Assoc. Prof. Saida Sharifova and PhD in Biology Mahammad Eldarov together with the Swedish Institute of Agricultural Sciences in 2023, was declared the winner by the Swedish University and a decision was made to finance it. The first joint meeting on the implementation of the project work was held on September 5-7, 2023 at the Swedish Institute of Agricultural Sciences in Malmo, Sweden. Javid Ojagi and Saida Sharifova attended the meeting, gave information on the project's commitments by Azerbaijan, Khazar University and held discussions.

In the three-day meetings, the participants of the project were experts from Sweden, Estonia, Latvia and Ukraine, as well as well-known scientists from Sweden, Denmark and the Kingdom of the Netherlands and the experiences of different countries were heard, future plans and issues of joint new project development were discussed.

It was decided to hold one of the next meetings on the project at Khazar university.



*Şükrü Baydemir* *Əlövsət Əmirbəyli*

# ŞEYH EDEBALI ÜNİVERSİTETİNİN TƏDBİRİ

Sentyabrın 8-də Bakıdakı Park İNN hotelində Türkiyənin Bilecik Şeyh Edebali Üniversiteti BİL-YÖS imtahanını müvəffəqiyyətlə vermiş azərbaycanlı tələbələr və onların valideynləri ilə görüş keçirdi.

Görüşdə Bilecik Şeyh Edebali Universitetinin rektoru Şükrü Baydemir, Türkiyə Respublikasının Azərbaycandakı səfiri Cahit Bağcı, Milli Məclisin üzvü Hikmət Babaoğlu, Azərbaycan Dövlət Pedaqoji Universitetinin rektoru Cəfər Cəfərov, Xəzər Universitetinin İctimai əlaqələr və media üzrə direktoru Əlövsət Əmirbəyli və digərləri çıxış etdilər. Onlar tələbələrə təhsildə uğurlar arzuladılar.

Bilecik Şeyh Edebali Üniversitetinin rektoru Şükrü Baydemir Ə.Əmirbəyliyə təşəkkür plaketi təqdim etdi.

# EVENT OF ŞEYH EDEBALI UNIVERSITY

On September 8, at the Park INN Hotel in Baku, Türkiye's Bilecik University held a meeting with Azerbaijani students and their parents who successfully passed the Bilecik University Foreign Student Examination (BİL-YÖS) exam.

Rector of Bilecik Şeyh Edabali University Shukru Baydemir, ambassador of the Republic of Türkiye to Azerbaijan Jahit Baghci, member of Milli Majlis Hikmet Babaoghlu, rector of Azerbaijan State Pedagogical University Jafar Jafarov, director of Public Relations and Media at Khazar University Alovsat Amirbeyli and others made speeches at the meeting. They wished the students success in their education.

Rector of Bilecik Şeyh Edabali University Shukru Baydemir presented a plaque of gratitude to Amirbeyli.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜDİRİ EKSPERT KİMİ BEYNƏLXALQ VEBİNARDA İŞTİRAK ETMİŞDİR

Sentyabrın 9-da İngilis dili və ədəbiyyatı departamentinin müdiri Milana Abbasova Hindistanın SRM Elm və Texnologiya İnstitutunun İngilis dili və xarici dillər fakültəsi və Lavanda Ədəbiyyat Klubunun birgə təşkil etdiyi "Onlayn, oflayn və qarışıq öyrənməni asanlaşdırmaq üçün pedaqogika" mövzusunda altı günlük beynəlxalq vebinarda "Dil dəyişikliyi və qabaqcıl texnologiya: sosial medianın dilə gətirdiyi dəyişikliklər" mövzusunda təqdimatla çıxış etmişdir.

## HEAD OF THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE AS A RESOURCE PERSON AT THE INTERNATIONAL WEBINAR

On September 9, Dr. Milana Abbasova the head of the English Language and Literature department delivered a lecture on "LANGUAGE Change and Advanced Technology: The changes that soft media has imposed on language" as a resource person at the Six Day International Webinar on "Pedagogies to facilitate Online, Offline and Blended Learning" jointly organized by Department of English and Foreign Languages SRM Institute of Science and Technology and Lavender Literary Club, India.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ SINAQ DƏRSLƏRİ

Sentyabrın 4-11-də İngilis dili və ədəbiyyatı departamenti tərəfindən sınaq dərslər təşkil olundu. Sınaq dərslərində iştirak edən müəllimlər - növbəti tədris ilində İngilis dili və ədəbiyyatı departamenti ilə əməkdaşlıq etmək istəyən namizədlər - əvvəlcədən təyin olunmuş mövzu ətrafında müddəti 20 dəqiqə olan dərslər keçdilər.

Dərslər departamentin müdiri Milana Abbasova və digər əməkdaşları, Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova tərəfindən dinlənildi və qiymətləndirildi.

## DEMO LESSONS AT ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT

On September 4-11, demo lessons were organized by the Department of English Language and Literature. Teachers participating in the demo lessons - candidates who wish to cooperate with the Department of English Language and Literature during the current academic year - conducted 20-minute lessons on the predetermined topic.

The lessons were evaluated by department head Milana Abbasova and other instructors, director of Quality Assurance Centre Lyudmila Sotova.




*Sağdan ikinci Orxan Vəliyev*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜDİRİ BEYNƏLXALQ TƏBDİRLƏRDƏ

## HEAD OF THE DEPARTMENT OF POLITICAL SCIENCES AND PHILOSOPHY IN INTERNATIONAL EVENTS

Sentyabrın 11-də Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzi (AİR CENTER) və Qazaxıstan Respublikasının Azərbaycandakı səfirliyinin "Azərbaycan-Qazaxıstan münasibətlərti: regional əməkdaşlıq" mövzusunda keçirdikləri tədbirdə iştirak etmişdir.

On September 11, the head of the Department of Political Sciences and Philosophy of Khazar University Dr. Orkhan Valiyev participated in the event held by the Center for the Analysis of International Relations (AIR CENTER) and the Embassy of the Republic of Kazakhstan in Azerbaijan on the topic "Azerbaijan-Kazakhstan relations: regional cooperation".

***

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyev sentyabrın 12-15-də keçirilən International Center for Strategic Research and Analysis (CESRAN) və Universidade Autónoma de Lisboa, and OBSERVARE ortaq əməkdaşlığı ilə baş tutan "CESRAN2023 – 10th Annual Conference on International Studies" konfransına sentyabrın 13-də onlayn qoşularaq, məruzə etmişdir.

Dr. Vəliyev məruzəsində Dağlıq Qarabağ statusunun Azərbaycan tərəfindən Qarabaq İqtisadi Regionu olaraq dəyişdirildiyini əsaslandırmış, Dağlıq Qarabağ statusunun bərpasının isə mümkün olmayacağını ifadə etmişdir.

Dr. Orkhan Valiyev, head of the Department of Political Science and Philosophy of Khazar University, joined the conference "CESRAN2023-12th Annual Conference on International Studies" held on September 12-15, in cooperation with International Center for Strategic Research and Analysis (CESRAN) and Universidade Autónoma de Lisboa, and OBSERVARE, online on September 13 and made a report.

In his report, Dr.Valiyev justified the change of the status of Nagorno-Karabakh to the Karabakh Economic Region by Azerbaijan, and stated that it will not be possible to restore the status of Nagorno-Karabakh.



*Francisco Gutierrez* *Hamlet İsaxanlı*

## ARİZONA DÖVLƏT UNİVERSİTETİ İLƏ ƏMƏKDAŞLIQ MÜQAVİLƏSİ

Sentyabrın 11-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı və "Cintana Education" layihəsinin üzvü Dr. Francisco Gutierrez ilə görüşmüşdür.

Görüşdə Xəzər Universitetinin rəhbərliyi – rektor İradə Xəlilova, prorektorlar və fakültə dekanları iştirak etmişlər. Keçirilən tədbir zamanı Dr. Francisco Gutierrez universitetlə tanış edilmiş, gələcək perspektivlər və inkişaf istiqamətləri barədə söhbət açılmış, sonda isə əməkdaşlıq müqaviləsi imzalanmışdır.

## COOPERATION AGREEMENT WITH ARIZONA STATE UNIVERSITY

On September 11, Prof. Acad Hamlet Isakhanli, founder of Khazar University and chairman of its Board of Directors and Trustees met with Dr.Francisco Gutierrez, a member of the "Cintana Education" project.

The meeting was attended by Khazar University administration – rector Irada Khalilova, vice-rectors and faculty deans. During the event, Francisco Gutierrez was introduced to the University, future prospects and development directions were discussed, and a cooperation agreement was signed at the end.



## "AKADEMİK YAZI" TƏLİMİ

## TRAINING ON "ACADEMIC WRITING"





*Sentyabrın 12-də Humanitar, təhsil və sosial elmlər fakültəsində müəllimlər üçün "Akademik yazı" təlimi təşkil olunmuşdur.*

*On September 12, "Academic writing" training was organized for instructors at the School of Humanities, Education and Social Sciences.*

## "İNGİLİS DİLİNİN TƏDRİSİ: PROBLEMLƏR VƏ PERSPEKTİVLƏR" MÖVZUSUNDA SEMİNAR

## SEMINAR ON " TEACHING ENGLISH: PROBLEMS AND PROSPECTIVES"

Sentyabrın 14-də İngilis dili və ədəbiyyatı departamentində "İngilis dilinin tədrisi: problemlər və perspektivlər" mövzusunda seminar təşkil eildi. Seminarı departamentin professoru Hüseynağa Rzayev apardı. Seminarda İngilis dilinin tədrisi zamanı qarşıya çıxan problemlər,onların həlli yolları və s. müzakirə edildi.

Tədbirdə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı, İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasova, departamentin əməkdaşları iştirak etdilər.

On September 14, the Department of English Language and Literature organized a seminar on "Teaching English: Problems and Prospectives". The seminar was conducted by Professor of the Department Huseynagha Rzayev. The problems encountered during the teaching of the English language, their solutions and other issues were discussed at the seminar.

Prof. Acad. Hamlet Isakhanli, the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, Dr. Milana Abbasova, the head of the English Language and Literature Department, and the employees of the department attended the event.

## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ İCLAS

## MEETING IN THE DEPARTMENT OF ENGLISH LANGUAGE AND LITERATURE

Sentyabrın 14-də Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr. Milana Abbasovanın sədrliyi və departamentin müəllimlərinin iştirakı ilə iclas keçirildi. İclasda Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof. Akad. Hamlet İsaxanlı iştirak etmişdir.

İclasda bu ilin payız semestri üçün nəzərdə tutulmuş məsələlərə baxıldı və departamentin yeni əməkdaşları təqdim edildi. Tədris məsələləri, departamentin akademik fəaliyyəti və cari işlər də müzakirə olundu.

On September 14, a meeting was held under the chairmanship of Dr. Milana Abbasova, the head of Khazar University's English Language and Literature Department, and with the participation of lecturers of the department.

Hamlet Isakhanli, founder of Khazar University and chairman of its Board of Directors and Trustees, attended the meeting.

At the meeting, the issues envisaged for the fall semester of this year were considered and new employees of the department were presented. Teaching issues, academic activities of the department and current affairs were also discussed.

# ƏMƏKDAŞLAR BEYNƏLXALQ ARXEOLOJİ TƏDQİQATDA
# STAFF MEMBERS IN INTERNATIONAL ARCHAEOLOGICAL RESEARCH

Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimləri – tarix üzrə fəlsəfə doktoru Yaqub Məmmədov və doktorant Orxan Zamanov 2023-cü il avqustun 14-dən sentyabrın 13-dək Azərbaycan-Yaponiya "Damcılı beynəlxalq arxeoloji ekspedisiyası"nın Qazax rayonu ərazisində yerləşən Damcılı və Daş Salahlı mağaralarında aparılan tədqiqatlarda iştirak etmişlər. Ümumiyyətlə, 2022 - 2023 - cü illərdə ekspedisiya Azərbaycan tərəfdən Y. Məmmədovun (elmi işçilər Ülviyyə Səfərova, Orxan Zamanov) rəhbərliyi ilə keçirilmişdir. Yaponiya tərəfdən tədqiqatlara Tokio Universitetinin professoru Yoşihiro Nişiaki rəhbərlik etmişdir.

Qeyd etmək lazımdır ki, 2015 - ci ildə AMEA Arxeologiya, Etnoqrafiya və Antropologiya İnstitutu, Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Tokio Universiteti arasında imzalanan memoranduma əsasən Yaponiya - Azərbaycan birgə beynəlxalq ekspedisiyası təşkil olunmuşdur. Damcılı mağarası 1953 - cü ildə S.N. Zamyatnin və M.M. Hüseynov tərəfindən qeydə alınmış və elə o zaman ilkin tədqiqatlar aparılmışdır. Bununla da, ölkəmizdə paleolit dövrünün öyrənilməsinin əsası qoyulmuşdur. 1956-1957 - ci illərdə Damcılı mağarasında arxeoloji qazıntılar M. M. Hüseynovun rəhbərliyi ilə davam etdirilmişdir. Nəticədə, ərazidəki bulağa yaxın sahədə, mədəni təbəqədən neolit, mezolit, üst və orta paleolit dövrlərinə aid 7 mindən artıq müxtəlif növ daşlardan hazırlanmış alətlər və texniki tullantılar, eləcə də, fauna qalıqları aşkar olunmuşdur. Lakin abidənin mədəni təbəqələrinin qarışıq olması onun stratiqrafiyasını müəyyən etməyə imkan vermirdi.

2016-2019-cu və 2022-ci illərdə aparılmış tədqiqatların başlıca məqsədi Cənubi Qafqaz regionunun Orta Kür hövzəsində mezolitdən neolitə keçidin tədqiqi ilə yanaşı, mezolit və paleolit ovçu-yığıcılarının sosial-iqtisadi həyatı haqqında məlumat əldə etməkdən ibarət olmuşdur. Bərpa edilmiş arxeoloji tədqiqatların əsas nailiyyətlərindən biri abidənin yeni seçilmiş qazıntı sahəsində mədəni təbəqələrin qarışıq olmamış vəziyyətdə aşkar olması idi. Tədqiq olunan mədəni təbəqələr geniş bir dövrü əhatə edir (e.ə.VII minilliyin ortasından XVII əsrin sonuna qədər). Bu səbəbdən abidəyə olan elmi maraq tamamilə özünü doğrultdu. Bütün tədqiqatlar müasir dövrdə tətbiq olunan multidisiplinar üsullar ilə aparılmışdır.

Tədqiqatlara "Avey" Dövlət Tarix-Mədəniyyət Qoruğunun əməkdaşları da cəlb olunmuşdur.

Aparılmış tədqiqatların nəticələrinə dair monoqrafiya çapa hazırlanır və İngiltərədə nəşri nəzərdə tutulub.

The teachers of the Department of history and archeology of Khazar University – PhD in History Yagub Mammadov and PhD student Orkhan Zamanov participated in the research carried out in the Damcili and Dash Salahli caves located in the Gazakh region of the Azerbaijan-Japan "Damcili international archaeological expedition"from August 2023 to September 14. In general, in 2022 - 2023, the expedition was conducted from the Azerbaijani side under the leadership of Y. Mammadov (scientific workers Ulviyya Safarova, Orkhan Zamanov). From the Japanese side, the research was led by Professor Yoshihiro Nishiaki of the University of Tokyo.

Note that in 2015, a joint Japan-Azerbaijan international expedition was organized based on the memorandum signed between ANAS Institute of Archaeology, Ethnography and Anthropology, the Ministry of Culture of the Republic of Azerbaijan and the University of Tokyo. Damcili cave was recorded by S.N. Zamyatnin and M.M. Huseynov in 1953, and it was then that the initial research was carried out. Thus, the basis for the study of the Paleolithic period in our country was laid. In 1956-1957, archeological excavations in Damcili cave were continued under the leadership of M. M. Huseynov. As a result, more than 7,000 different types of stone tools and technical waste, as well as fauna remains, were discovered from the Neolithic, Mesolithic, Upper and Middle Paleolithic cultural layers in the area near the spring in the area. However, the mixed cultural layers did not allow to determine the stratigraphy of the monument.

The main goal of the research conducted in 2016-2019 and 2022 was to study the transition from the Mesolithic to the Neolithic in the Middle Kura Basin of the South Caucasus region, as well as to obtain information about the socio-economic life of Mesolithic and Paleolithic hunter-gatherers. One of the main achievements of the restored archaeological research was the discovery of unmixed cultural layers in the newly selected excavation area of the monument. The studied cultural layers cover a wide period (from the middle of the 7th millennium BC to the end of the 17th century). For this reason, scientific interest in the monument was fully justified. All researches were conducted using modern multidisciplinary methods.

Employees of "Avey" State Historical-Cultural Reserve were also involved in the research. A monograph on the results of the conducted research is being prepared for publication and it is planned to be published in England.



*Dilbər Zeynalova* *Nəzakət Məmmədli* *Şəhram Oromi*

## "AZƏRBAYCANDAN DÜNYAYA DOĞAN GÜNƏŞ: ŞƏMS VƏ MÖVLANA" MÖVZUSUNDA SEMİNAR

Sentyabrın 15-də Xəzər Universiteti Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutu və Dillər və ədəbiyyatlar departamentinin birgə təşkilatçılığı ilə Türkiyə Cümhuriyyətinin yüz illiyinə həsr edilmiş "Azərbaycandan dünyaya doğan günəş: Şəms və Mövlana" adlı elmi seminar keçirildi.

Mövlana Ədəbi-Fəlsəfi Araşdırmalar İnstitutunun direktoru Dos. Nəzakət Məmmədlinin moderatorluğu ilə keçirilən tədbirdə Azərbaycanın və Türkiyənin dövlət himnləri ifa olundu. Sonra Nəzakət Məmmədli Nuru Paşanın rəhbərliyi ilə Qafqaz İslam Ordusunun

## SEMINAR ON "THE SUN RISING FROM AZERBAIJAN TO THE WORLD: SHAMS AND MEVLANA"

On September 15, a scientific seminar dedicated to the centenary of the Republic of Türkiye was held under the joint organization of the Khazar University Mevlana Institute for Literary and Philosophical Studies and the Department of Languages and Literatures entitled "The sun rising from Azerbaijan to the world: Shams and Mevlana ".

The national anthems of Azerbaijan and Türkiye were performed at the event moderated by Assoc. Prof. Nazakat Mammadli, director of the Mevlana Institute for Literary and Philosophical Studies. Then Nazakat



Bakını rus və erməni-daşnak işğalından sentyabrın 15-də xilas etməsinin tarixi əhəmiyyətindən bəhs etdi.

Xəzər Universitetinin rektoru Dos. İradə Xəlilova, Mövlana Ədəbi-Fəlsəfi İnstitutunun təsisçisi Şəhram Oromi, Dillər və ədəbiyyatlar departamentinin müdiri Dos. Dilbər Zeynalova və Hikmət Elmlər Mərkəzinin direktoru, Üsküdar Universiteti Təsəvvüf Araşdırmaları İnstitutunun doktorantı İlahə Məmmədova - Kurşun`un açılış nitqləri dinlənildi.

Tanınmış mütəsəvvif, araşdırmaçı-yazar Cemalnur Sarqut "Həzrəti Şəms təlimləri ilə günümüzdə təsəvvüfü yaşamaq" adlı onlayn məruzə ilə çıxış edərək, Şəms Təbrizi və Mövlana Cəlaləddin Ruminin sevgi, barış və təkamülə əsaslanan möhtəşəm mənəvi təliminin günümüzədək davam etdiyini nəzərə çatdırdı.

Filologiya elmləri doktoru, Prof. Şəfəq Əlibəyli "Mövlana nəzmində təzad daşıyan irfani istilahların poetik dialektikası", Dos. Səadət Şıxıyeva "Hürufi mətnlərində Mövlananı xatırlatmalar", Dos. Nəzakət Məmmədli "Divani-Kəbirdə vəzn, məna və şeiriyyət uyumu", Türkiyədən onlayn qoşulan Prof. Reşat Öngören "Şəms ve Mövlana əlaqələrində yaşanan olayların təsəvvüf düşüncəsi nəzərindən dəyərləndirilməsi" və Şəhram Oromi "Mənim Şəmsim, Mənim Tanrım" mövzularında məruzə etdilər.

Tədbirdə iştirak edən Türk Dünyası Elmi Strateji Araşdırmalar Mərkəzinin direktoru Dos. Məhəmməd Cəbrayılov türk xalqlarının birliyinin, mədəniyyətlərarası əlaqənin önəmini vurğuladı.

Tanınmış şair, Dos. Şəlalə Ana Himmətli Mövlana Cəlaləddin Rumiyə həsr etdiyi "Mövlana" şeirini oxudu.

Xəzər Universitetinin müəllimləri – Dos. Xatirə Yusifova, Dos. Reyhan Mədətova, fil.üz. f.d. Zəminə Ziyayeva, Sevinc Qənbərova və AMEA Əlyazmalar

(Ardı səh.60 - da)



*Şəlalə Ana Himmətli*



*İlahə Məmmədova - Kurşun*

Mammadli spoke about the historical significance of the liberation of Baku by the Caucasian Islamic army under the leadership of Nuru Pasha from the Russian and Armenian-Dashnak occupation on September 15.

Opening speeches were made by Assoc. Prof. Irada Khalilova, rector of Khazar University, Shahram Oromi, founder of Mevlana Institute for Literary and Philosophical Studies, Assoc. Prof. Dilbar Zeynalova, head of Languages and Literature Department, and Ilaha Mammadova- Kurshun, director of Hikmat Sciences Center, PhD student at the Institute of Sufi Studies at Uskudar University.

The well-known sufi, researcher-writer Cemalnur Sargut delivered an online report entitled "Experiencing Sufism today with the teachings of Hazrat Shams" and pointed out that the magnificent spiritual teachings of Shams Tabrizi and Mevlana Jalaladdin Rumi based on love, peace and evolution continue to this day.

The participants of the event made reports on the following topics: Doctor of Philological Sciences, Prof. Shafaq Alibeyli "Poetic dialectic of conflicting philosophical terms in Mevlana's verse" , Assoc. Prof. Saadat Shikhiyeva "Reminiscences of Mevlana in Hurufi texts", Assoc. Prof. Nazakat Mammadli "Harmony of rhythm, meaning and poetry in Divani-Kabir", Prof. Reshat Ongoren, who joined online from Türkiye, "Evaluation of events in the relationship between Shams and Mevlana from the point of view of Sufism" and Shahram Oromi "My Sun, My God".

Director of the Center for Scientific Strategic Studies of the Turkic World Assoc. Prof. Mahammad Jabrayilov, who attended the event, emphasized the importance of the unity of the Turkic peoples and intercultural communication.

The well-known poet Assoc. Prof. Shalala Ana Hummatli recited the poem "Mevlana" dedicated to Mevlana Jalaladdin Rumi.

(To be continued page 60)

İnstitututdan əməkdaşları da seminarda iştirak edirdilər. Media mənsubu, Üsküdar Universiteti Təsəvvüf Araşdırmaları İnstitutunun doktorantı, Nəfəs Nəşriyyat Evinin mətbuat müşaviri Tuğçe Yücebilgiç, Ankara Mədəniyyət və Turizm Nazirliyi Vəqflər Baş Müdirliyində çalışan dövlət məmuru Nilufər Taşkın, Üsküdar Universiteti Təsəvvüf Araşdırmaları İnstitutundan Selma Ekşi, Gönül Akkaya, Hülya Taştekin, Gülçin Acun və başqaları – Türkiyədən və Almaniyadan gələn 25 nəfərlik elmi heyət də tədbirə qatılmışdı.

Tədbir müzakirələr, məruzəçilərə ünvanlanan suallar və cavablardan sonra musiqili bədii hissə ilə başa çatdı.



*Məhəmməd Cəbrayılov*



*Səadət Şıxıyeva*

The faculty members of Khazar University -Assoc. Prof. Khatira Yusifova, Assoc. Prof. Reyhan Madatova, PhD in Philology Zamina Ziyayeva, Sevinj Ganbarova and employees of ANAS Institute of Manuscripts also participated in the seminar.

Tugche Yucebilgich, a media member, doctoral student of the Institute of Sufism Studies, Uskudar University, press adviser of Nafas Publishing House, Nilufer Tashkin, a civil servant working in the General Directorate of Foundations of the Ankara Ministry of Culture and Tourism, Selma Ekshi, Gonul Akkaya, Hulya Tashtekin, Gulchin Acun from the Institute of Sufism Studies, Uskudar University and others - a 25-person scientific team from Türkiye and Germany also attended the event.

The event ended with a musical artistic part after discussions, questions and answers addressed to the speakers.

## KİTABXANA RESURSLARINDAN İSTİFADƏ HAQQINDA TƏLİM

Sentyabrın 19-da Xəzər Universitetinin Mərkəz kampusunda Kitabxana İnformasiya Mərkəzinin əməkdaşı Əzizə Cəfərova İqtisadiyyat və menecment fakültəsinin I kurs tələbələri üçün məlumatlandırıcı təlim keçirdi. Təlimdə kitabxana resurslarından istifadə etmək qaydaları haqqında məlumat verildi.

## TRAINING ON USING LIBRARY RESOURCES

On September 19, Aziza Jafarova, an employee of the Library Information Center, conducted an informative training for the first-year students of the School of Economics and Management at the Downtown Campus of Khazar University. The training provided information on the rules for using library resources.

# GEORGE BERKELEY`IN ƏSƏRİ AZƏRBAYCAN DİLİNDƏ




Britaniyalı filosof George Berkeley`in (1685-1753) "Three Dialogues between Hylas and Philonous" adlı əsəri Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Anar Cəfərovun tərcüməsində çap olunub: Corc Berkli "Hilas və Filonus arasında üç dialoq". Kitab oxuculara Bakı Araşdırmalar İnstitutu tərəfindən təqdim edilmişdir.

# GEORGE BERKELEY'S WORKS IN AZERBAIJANI

British philosopher George Berkeley's (1685-1753) work titled "Three Dialogues between Hylas and Philonous" translated by Anar Jafarov, the lecturer of the Department of Political Sciences and Philosophy of Khazar University, has been published: "Three Dialogues between Hylas and Philonous" by George Berkeley. The book was presented to readers by the Baku Research Institute.




# XƏZƏR UNİVERSİTETİNİN NÜMAYƏNDƏLƏRİ 23-CÜ ÇİN BEYNƏLXALQ SƏNAYE SƏRGİSİNDƏ

# KHAZAR UNIVERSITY REPRESENTATIVES AT THE 23RD CHINA INTERNATIONAL INDUSTRY FAIR

## AÇILIŞ GÜNÜNDƏ

*Sentyabrın 19-da Çin Xalq Respublikasında 23-cü Çin Beynəlxalq Sənaye Sərgisi işə başlamışdır. Şanxay Elm və Texnologiya Universitetinin İnkişaf mərkəzi, Baoşan Elm və Texnologiya Komitəsi və Pan Şu Elm-Texnologiyalar Parkının təşkilatçılığı ilə keçirilən sərgidə Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri Prof.Akad. Hamlet İsaxanlı və Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Fəxrəndə Əfəndiyeva iştirak etmişlər.*

Sərginin ilk günündə dövlət rəsmiləri və sərgi təşkilatçılarının iştirakı ilə açılış mərasimi keçirildi. Dövlət rəsmiləri sərgidə iştirak edən bütün universitetlərin pavilyonlarında olaraq, universitet nümayəndələri ilə görüşdülər.

Xəzər Universiteti adından Prof.Akad. Hamlet İsaxanlı sərgi iştirakçıalrını salamlayaraq, onlara xoş arzularını çatdırdı.

Sərgininda vamında Pan Şu Elm-Texnologiyalar Parkı ilə Xəzər Universiteti arasında Anlaşma Memorandumu imzalandı. Prof.Akad. Hamlet İsaxanlı yerli televiziya kanalına sərgi ilə bağlı və Çin universitetləri ilə qarşılıqlı əməkdaşlıq

## ON THE OPENING DAY

*On September 19, the 23rd China International Industry Fair launched in the People's Republic of China. Prof. Acad. Hamlet Isakhanli, founder of Khazar University, chairman of the Board of Directors and Trustees, and Dr. Fakhranda Afandiyeva, dean of the School of Science and Engineering, attended the exhibition organized by the Development Center of the University of Shanghai for Science and Technology, Baoshan Science and Technology Commission and Pan Shu Science and Technology Park.*

On the first day of the exhibition, an opening ceremony was held with the participation of state officials and exhibition organizers. State officials met with university representatives in the pavilions of all the universities participating in the exhibition.

On behalf of Khazar University, Hamlet Isakhanli greeted the exhibitors and conveyed his best wishes to them.

In the continuation of the fair, a Memorandum of Understanding was signed between Pan Shu Science and Technology Park and Khazar University.Prof. Acad. Hamlet Isakhanli gave an




haqqında müsahibə verdi.

Günün ikinci yarısı sərgi işinə seçilmiş universitetlərin təqdimatları ilə davam etdi. Prof. Akad. Hamlet İsaxanlı sərgi iştirakçılarına Xəzər Universiteti haqqında geniş məlumat verərək, universitet nümayəndələrinin suallarını cavablandırdı.

Sərgi sentyabrın 25-dək davam etmişdir.

interview to the local TV channel about the exhibition and about mutual cooperation with Chinese universities.

The second half of the day continued with the presentations of the selected universities. Prof. Acad. Hamlet Isakhanli gave detailed information about Khazar University to the exhibitors and answered the questions of university representatives. The exhibition will last until September 25.





*Şanxay Universitetinin Texnoloji İnkişaf Mərkəzinin direktoru LU Zhen, Fəxrəndə Əfəndiyeva*

## ŞANXAY UNİVERSİTETİ VƏ PAN ŞU ELM-TEXNOLOGİYALAR PARKINDA

Sentyabrın 20-də Çin Xalq Respublikasında keçirilən 23-cü Çin Beynəlxalq Sənaye sərgisinin 2-ci günündə Xəzər Universitetinin nümayəndə heyəti Şanxay Universiteti və Pan Şu Elm-Texnologiyalar Parkında keçirilən görüşdə olmuşdur. Görüşdə, həmçinin, Qazaxıstan Əl-Fərabi Dövlət Univeristetinin də nümayəndə heyəti iştirak etmişdir.

Universitetlərin təqdimatlarından sonra, Prof. Akad. Hamlet İsaxanlı Xəzər Universiteti ilə Şanxay Universiteti və Pan Şu Elm-Texnologiyalar Parkı arasında imzalanmış anlaşma memorandumunun detallarını müzakirə etmişdir. Görüş universitet nümayəndələrinin qarşılıqlı müzakirələri ilə başa çatmış, xatirə hədiyyələri təqdim olunmuşdur. Sonda Pan Şu Elm-Texnologiyalar Parkına baxış keçirilmişdir.

## AT SHANGHAI UNIVERSITY AND PAN SHU SCIENCE AND TECHNOLOGY PARK

On September 20, on the 2nd day of the 23rd China International Industry Fair in the People's Republic of China, the delegation of Khazar University attended a meeting held at Shanghai University and Pan Shu Science and Technology Park. The delegation of Al-Farabi Kazakh National University also attended the meeting.

Following the presentations of the universities, Prof. Acad. Hamlet Isakhanli discussed the details of the memorandum of understanding signed between Khazar University and Shanghai University and Pan Shu Science and Technology Park. The meeting ended with mutual discussions of university representatives and keepsakes were presented. At the end, the Pan Shu Science and Technology Park was inspected.



## FUDAN UNİVERSİTETİNDƏ

Sentyabrın 21-də Çin Xalq Respublikasında keçirilən 23-cü Çin Beynəlxalq Sənaye sərgisinin 3-cü günündə Xəzər Universitetinin nümayəndə heyəti Fudan Universitetinin nümayəndə heyəti ilə görüşmüşdür. Fudan Universiteti Dünya reytinq sistemində 51-ci, Çin Xalq Respublikasın univeristetləri sıralamasında 3-cü yerdədir.

Görüşdə Prof.Akad. Hamlet İsaxanlı Xəzər Universiteti haqqında geniş təqdimatla cıxış etmişdir. Sonra hər iki universitetin nümayəndələri öz fakültələri haqqında məlumatlarla çıxış etmişdir. Görüşdə müxtəlif aspektlərdə universitetlərarası əlaqələrin inkişafı və davamı ilə bağlı müzakirələr aparılmşdır.

Sonra universitet nümayəndələrinə xatirə hədiyyələri təqdim edilmiş və Fudan Universitetinin İnnovasiyalar və sahibkarlıq fakültəsi ilə tanışlıq olmuşdur. Fakültədə tələbələrin gördükləri layihələrə baxış keçirilmiş və gələcəkdə universitetin keçirəcəyi müsabiqələrdə Xəzər Universitetinin tələbələrinin də iştirakı ilə bağlı məsələlər müzakirə edilmişdir.



*Fəxrəndə Əfəndiyeva, Hamlet İsaxanlı, Fudan Zhabgjang İnstitutunun dekan müavini LU Xiaolin*

## AT FUDAN UNIVERSITY



*Hamlet İsaxanlı, Fudan Universiteti Qlobal əməkdaşlıqlar üzrə direktor müavini XU Yefang*

On the 3rd day of the 23rd China International Industry Fair held in the People's Republic of China on September 21, the delegation of Khazar University met with the delegation of Fudan University. Fudan University ranks 51st in the world ranking system and 3rd in the ranking of Universities of the People's Republic of China.

At the meeting, Prof. Acad. Hamlet Isakhanli gave a broad presentation about Khazar University.

Then the representatives of both universities gave information about their faculties. The meeting covered discussions regarding the development and continuation of inter-university relations in various aspects.

Then the university representatives were presented with keepsakes and introduced to the Faculty of Innovations and Entrepreneurship of Fudan University.

The students ' projects were reviewed at the faculty and issues related to the participation of Khazar University students in future competitions were discussed.




# MİNHAN HOSPİTALINDA

Sentyabrın 22-23-də - Çin Xalq Respublikasında keçirilən 23-cü Çin Beynəlxalq Sənaye Sərgisinin sonuncu günlərində Xəzər Universitetinin nümayəndə heyəti Fudan Universiteti nəzdində Minhan Hospitalının nümayəndə heyəti ilə görüşmüşdür. Görüşdə hər iki nümayəndə heyətinin üzvləri təqdimatla çıxış etmiş, qarşılıqlı əlaqələrin qurulması və inkişafı ilə bağlı müzakirələr aparmışlar.

Görüşün sonunda xatirə hədiyyələri təqdim edilmiş və hospitala baxış keçirilmişdir.

Sərginin bağlanış mərasimi sentyabrın 23-də keçirilmiş və Xəzər Universiteti sərgidə uğurlu təmsilinə görə sertifikatla təltif olunmuşdur.





# AT MINHAN HOSPITAL

On September 22-23, - during the last days of the 23rd China International Industry Fair held in the People's Republic of China, the delegation of Khazar University met with the delegation of Minhan Hospital under Fudan University. At the meeting, members of both delegations made presentations and discussions were held on the establishment and development of mutual relations.

At the end of the meeting, keepsakes were presented and the hospital was inspected.

The closing ceremony of the fair was held on September 23, and Khazar University was awarded a certificate for its successful representation there.



## U-TRAİN LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ SEMİNAR

Sentyabrın 14-də Xəzər Universiteti və İvan Franko Milli Universitetinin tərəfdaş universitetlər olduğu və Stokholm Universitetinin koordinasiya etdiyi "U-Train - müharibə zamanı və ondan sonra onlayn tədris üçün təlim" layihəsi çərçivəsində onlayn seminar keçirilmişdir.

Layihə Ukraynada ali təhsil sektorunun yenidən qurulmasının bir hissəsi kimi müharibə dövründə və müharibədən sonrakı dövrdə onlayn kursların təşkili və keçirilməsi ilə bağlı ehtiyacları qarşılayır. Layihənin nəticələri, əsasən, Azərbaycan və Ukrayna ali təhsilinin müharibə dövrü təcrübələrinə əsaslanır.

Xəzər Universitetinin İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva da tədbirin məruzəçilərindən biri olub. O, tədqiqatın nəticələri barədə təqdimatla çıxış edib Tədqiqatın məqsədi müxtəlif maraqlı tərəflər üçün müharibə zamanı onlayn öyrənmə təcrübələrini araşdırmaq idi.

Layihənin tərəfdaşları ali təhsildə süni intellektin yaradıcı şəkildə istifadə edilməsi, chatgpt, onun istifadəsinə dair müxtəlif slaydlar təqdim etdilər.

Seminar sual-cavab sessiyası ilə başa çatdı.

## SEMINAR WITHIN U-TRAIN PROJECT

On September 14, an online seminar was held within "U-Train, Training to teach online in wartime and after" project to which Khazar University and Ivan Franko National University are partner universities and coordinated by Stockholm University.

The project addresses the needs regarding the design and delivery of online courses during the wartime, and in the postwar period as a part of reconstructing the higher education sector in Ukraine. The outcomes of the project are largely relying on the wartime experiences of Azerbaijani and Ukrainian Higher Education.

Director Development of Khazar University, Ms. Raziya İsayeva was also one of the speakers of the event.She gave a presentation on the result of the specific research. The aim of the research was to explore experiences of online learning during wartime for different stakeholders.

The project partners presented different slides on how to use artificial intelligence creativly in higher education, what is chatgpt, how to deal with it.

The seminar was ended with question-answer session.

## HASVET MEDİKAL ŞİRKƏTİNİN AZƏRBAYCANDAKI TƏMSİLÇİLƏRİ İLƏ GÖRÜŞ

## MEETING WITH HASVET MEDICAL REPRESENTATIVES IN AZERBAIJAN

Sentyabrın 15-də Xəzər Universitetində Həyat elmləri departamentinin təşkilatçılığı ilə Hasvet Medikal şirkətinin əməkdaşları ilə görüş keçirildi. Hasvet Bakı Beynəlxalq Heyvan Xəstəxanası (Hasvet Baku International Animal Hospital) 1 ilə yaxındır öz mütəxəssis heyəti ilə (yerli və türk baytar həkimlər) Bakı şəhərində fəaliyyətə başlamışdır. Xəstəxanada müxtəlif tipli əməliyyatlar, tomoqrafiya, endoskopiya, rentgen, ultrasəs, ümumi qan analizi, biokimyəvi və hormon analizləri, sitoloji diaqnostika, anesteziya, reanimasiya, həmçinin ev heyvanları üçün özəl baxım kimi xidmətlər göstərilir.

Görüşdə Xəzər Universitetinin rektoru İradə

On September 15, Khazar University hosted a meeting with employees of Hasvet Medical, organized by the Department of Life Sciences. Hasvet Baku International Animal Hospital has been operating in Baku for almost 1 year with its specialist staff (local and Turkish veterinarians). The hospital provides services such as various types of operations, tomography, endoscopy, X-ray, ultrasound, general blood analysis, biochemical and hormone analyzes, cytological diagnostics, anesthesia, resuscitation, as well as private care for pets.

The meeting was attended by the rector of Khazar

Xəlilova, Həyat elmləri departamentinin müdiri Cəmalə Eldarova, departamentin dosenti Cavid Ocaqi, Hasvet Bakı Beynəlxalq Heyvan Xəstəxanasının direktor müavini Mehmet Koçak, koordinatoru Y.Emre Büyükballı, həmçinin xəstəxananın baytar həkimi və Xəzər Universitetinin Həyat elmləri departamentinin müəllimi Çiçək Əliyeva iştirak etdilər.

Görüşdə baytarlıq klinikalarının qurulması, xəstəxana ləvazimatlarının, laboratoriya cihazlarının, heyvan dərmanlarının, yemlərinin və s. istehsalı kimi müxtəlif sahələrdə uğurlu fəaliyyət göstərən, Türkiyənin bir çox bölgələrində mərkəzləri olan Hasvet Medikal şirkəti, onun missiyası və fəaliyyət sahələri haqqında geniş təqdimat olundu. Bundan əlavə, tərəflər arasında əməkdaşlıq əlaqələrinin möhkəmləndirilməsi, Xəzər Universitetində Baytarlıq Klinikasının qurulması və onun idarəçiliyi ilə əlaqəli məsləhətlərin verilməsi, eyni zamanda təlimlərin təşkil olunması kimi məsələlər müzakirə olundu. Həmçinin, Xəzər Universitetində Baytarlıq təbabəti ixtisası üzrə təhsil alan tələbələrin bəzi təcrübə dərslərinin Hasvet Bakı Beynəlxalq Heyvan Xəstəxanasında tədris olunması üçün tərəflər arasında memorandumun imzalanması qərara alındı.

University Irada Khalilova, head of Life Sciences Department Jamala Eldarova, associate professor of the Department Javid Ojagi, deputy director of Hasvet Baku International Animal Hospital Mehmet Kochak, coordinator Y.Emre Buyukbali and Chichek Aliyeva, the hospital's veterinarian and instructor at Khazar University's Life Sciences Department.

Hasvet Medical company with its centers in many regions of Türkiye, successfully operating in various fields such as the establishment of veterinary clinics, production of hospital supplies, laboratory devices, animal medicines, feed et c. made a presentation on its mission and areas of activity. In addition, issues such as strengthening cooperation between the parties, providing advice on the establishment and management of a Veterinary Clinic at Khazar university, as well as organizing trainings were discussed.

It was also decided to sign a memorandum between the parties to teach some practice classes of students majoring in Veterinary Medicine at Khazar University at Hasvet Baku International Animal Hospital.




*Çiçək Əliyeva, Mehmet Koçak, İradə Xəlilova, Y.Emre Büyükballı, Cavid Ocaqi, Cəmalə Eldarova*

# ŞƏRQ TƏRƏFDAŞLIĞI REGİONUNDA AÇIQ ELMİN TƏŞVİQİ LAYİHƏSİ ÇƏRÇİVƏSİNDƏ İLK GÖRÜŞ

# THE FIRST MEETING WITHIN ADVANCING OPEN SCIENCE IN EASTERN PARTNERSHIP REGION BE OPEN- ERASMUS+ CBHI PROJECT



*İradə Xəlilova* *Ketevan Darakhvelidze*

Sentyabrın 19-da Xəzər Universitetində Şərq Tərəfdaşlığı Regionunda Açıq Elmin Təşviqi - ERASMUS+ ATPG layihəsi çərçivəsində yerli və xarici tərəfdaşlarla görüş keçirilmişdir. Tədbirdə layihənin koordinatoru Gürcüstanın İlia Dövlət Universitetindən Ketevan Darakhvelidze, Salome Shedania, Ana Khundadze və Xəzər Universiteti, Sumqayıt Dövlət Universiteti, Milli Elmlər Akademiyası və İqtisad Universitetindən nümayəndələr iştirak edirdi.

Tədbir Xəzər Universitetinin rektoru İradə Xəlilovanın giriş sözü ilə başlamışdır. Sonra universitetin İnkişaf Mərkəzinin rəhbəri Raziyə İsayeva onlayn şəkildə görüşə qatılmış, qonaqları salamlamış və yeni layihədə hər kəsə uğurlar arzulamışdır.

Xəzər Universitetindən layihə meneceri Səbinə Quliyeva da tədbirdə iştirak etmişdir.

Görüşdə layihənin ilkin təqdimatı olmuş, layihə ərzində görüləcək işlər, planlar haqqında danışılmış və müzakirələr aparılmışdır.

Sonda görüş şam yeməyi ilə başa çatmışdır.

On September 19, a meeting with local and foreign partners was held at Khazar University within the framework of the Advancing Open Science in Eastern Partnership Region Be Open-ERASMUS+ CBHI project.

Ketevan Darakhvelidze, Salome Shedania, Ana Khundadze from Ilia State University of Georgia and representatives from Khazar University, Sumgait State University, National Academy of Sciences and University of Economics attended the event.

The event started with the introduction of Khazar University Rector Irada Khalilova. Then the head of the university's Development Center, Raziya Isayeva, joined the meeting online, greeted the guests and wished everyone success in the new project.

Project Manager Sabina Guliyeva from Khazar University also participated in the event. The preliminary presentation of the project was held at the meeting, the work to be done during the project, plans and other issues were discussed .

## ELMİ ŞURANIN İCLASI

Sentyabrın 28-də Elmi Şuranın yeni dərs ilində ilk iclasını universitetin rektoru Dos. İradə Xəlilova açaraq, gündəlikdəki məsələləri şura üzvlərinin nəzərinə çatdırdı.

Gündəliyin birinci məsələsi olaraq iclasın sədri Elmi Şura üzvlərini Xəzər Universitetinin Elmi Şurasının yeni tərkibi ilə tanış etdi.

Gündəliyin ikinci məsələsi olan məzunlar haqqında məlumatlar Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Fəxrəndə Əfəndiyeva, İqtisadiyyat və menecment fakültəsinin əməkdaşı Xanım Öməroğlu, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədova və İqtisadiyyat və biznes yüksək təhsil fakültəsinin dekanı İnqilab Əhmədov tərəfindən təqdim olundu.

Üçüncü məsələ ilə əlaqədar fakültə dekanları Xəzər Universitetinə qəbul haqqında məlumat verərək, artım müşahidə olunduğunu qeyd etdilər.

Gündəliyin dördüncü məsələsi olaraq dekan İnqilab Əhmədov magistratura tələbələrinin tezis mövzuları və elmi rəhbərləri barədə məlumat verdi.

Gündəlikdəki beşinci məsələ olan fəlsəfə doktorluğu proqramı üzrə növbəti il üçün doktorantura və dissertanturaya qəbul planı haqqında rektor dosent İradə Xəlilova məlumat verdi.

Doktorant və dissertantların dissertasiya mövzularının, elmi rəhbərlərinin təsdiqi və dəyişdirilməsi haqqında (altıncı məsələ) müvafiq fakültə dekanlarının məlumatları dinlənildi.

Gündəliyin yeddinci məsələsi olaraq Xəzər Universitetinin İdarəetmə və tələbə işləri üzrə prorektoru, Dillər və ədəbiyyatlar departamentinin professoru, fil.e.d. İsaxan İsaxanlının "Azərbaycan-rus ədəbi əlaqələri (Serqey Yesenin və Azərbaycan)" adlı monoqrafiyasının çapa təqdim olunması haqqında məlumat şuranın elmi katibi Günel Bahəddinova tərəfindən təqdim olundu.

Elmi Şuranın növbəti – səkkizinci məsələsi Tarix və arxeologiya departamentinin müdiri t.ü.f.d. Telman Nüsrətoğlu Quliyevin dosent adının verilməsi üçün Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyası qarşısında vəsatət qaldırılması ilə bağlı universitetin Elmi Şurasına müraciəti müzakirə olundu.

Cari məsələlər qismində rektor dosent İradə Xəlilova Elmi Şuranın 2023-2024-cü tədris ili üçün fəaliyyət planı haqqında məlumat verdi. Departamentlərə elmi fəaliyyətlərinin daha aktiv formada aparılması və Elm və Təhsil Nazirliyinin tələbinə əsasən illik elmi hesabatların hazırlanması tapşırıldı.

Elmi şuranın gündəliyindəki məsələlərlə bağlı müsbət qərarlar qəbul edildi.

## SCIENTIFIC COUNCIL MEETING

On September 28, opening the first meeting of the Academic Council in the new academic year, the rector of the University, Associate Professor Irada Khalilova, informed the council members about the issues on the agenda.

As the first issue on the agenda, the chairman of the meeting introduced the members of the Scientific Council to the new composition of the Scientific Council of Khazar University.

The news about the graduates, which is the second issue of the agenda, was presented by the dean of the School of Science and Engineering, Fakhranda Afandiyeva, the employee of the School of Economics and Management, Khanim Omaroghly, the dean of the School of Humanities, Education and Social Sciences, Elza Samadova, and the dean of the Graduate School of Economics and Business, Ingilab Ahmadov.

Regarding the third issue, the deans of the schools gave information about admission to Khazar University and noted that an increase was observed.

As the fourth issue of the agenda, th dean Inqilab Ahmadov gave information about thesis topics and academic supervisors of master's students.

Rector Associate Professor Irada Khalilova informed about the fifth issue on the agenda, the PhD program admission plan for the next year.

The information of the deans of the respective schools was heard about the approval and change of the dissertation topics and scientific supervisors of doctoral students and dissertation students (sixth issue).

As the seventh issue of the agenda, the information on the presentation of the monograph "Azerbaijani-Russian literary relations (Sergei Yesenin and Azerbaijan)" by Isakhan Isakhanli, vice-rector for Administration and Student Affairs of Khazar University, professor of the Department of Languages and Literature, doctor of philology, was presented by the scientific secretary of the council Gunel Bahaddinova.

The next - eighth issue of the Scientific Council was the application of PhD in history Telman Nusratoghlu Guliyev, the head of the History and Archeology Department, to the Scientific Council of the university regarding the petition before the High Attestation Commission under the President of the Republic of Azerbaijan for the title of associate professor.

As for the current issues, the rector Asoc. Prof. Irada Khalilova gave information about the action plan of the Scientific Council for the academic year 2023-2024.

The departments were instructed to conduct their scientific researches more actively and to prepare annual scientific reports based on the request of the Ministry of Science and Education.

Positive decisions were made regarding the issues on the agenda of the scientific council.

## RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORLARININ BİRGƏ MƏQALƏSİ *“FILOMAT”* JURNALINDA




## JOINT ARTICLE OF THE PROFESSORS OF THE DEPARTMENT OF MATHEMATICS IN "*FILOMAT*" JOURNAL

Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri, Riyaziyyat departamentinin professoru Hamlet İsaxanlının birinci müəllifi olduğu və eyni departamentin professoru Biləndər Allahverdiyevin həmmüəllifi olduğu “Self-adjoint and non-self-adjoint extensions of symmetric q-Sturm-Liouville operators” (“Simmetrik q-Sturm-Liouville operatorlarının öz-özünə qoşma olan və öz-özünə qoşma olmayan genişlənmələri”) adlı məqalə “*Filomat*” jurnalında (2023, Cild 37, № 24) dərc edilmişdir. Qeyd edək ki, “*Filomat*” jurnalı “Web of Science” və “Scopus” verilənlər bazalarında indeksləşdirilib.

Bu məqalədə müəlliflər requlyar və sinqulyar (limit-nöqtə və limit-dairə hallarında) minimal simmetrik q-Şturm-Luivill operatorları üçün sərhəd qiymətlər fəzasını qururlar. Bu simmetrik q-Şturm-Luivill operatorlarının bütün maksimal dissipativ, maksimal akkumulyativ, öz-özünə qoşma olan və başqa genişlənmələri sərhəd şərtləri vasitəsilə tapılmışdır.

The article "Self-adjoint and non-self-adjoint extensions of symmetric q-Sturm-Liouville operators", which was first authored by the founder of Khazar University, chairman of the Board of Directors and Trustees, professor of the Department of Mathematics, academician Hamlet Isakhanli and co-authored by Bilander Allahverdiyev, professor of the same department was published in "*Filomat*" journal (2023, Vol. 37, No. 24). Note that "*Filomat*" journal is indexed in "Web of Science" and "Scopus" databases.

A space of boundary values is constructed for minimal symmetric regular and singular q-Sturm-Liouville operators in limit-point and limit-circle cases in the article. A description of all maximal dissipative, maximal accumulative, self-adjoint, and other extensions of such symmetric q-Sturm-Liouville operators is given in terms of boundary conditions.

***Məqaləyə keçid: https://www.pmf.ni.ac.rs/filomat-content/2023/37-24/37-24-2-20801.pdf***




## HÜCEYRƏ PATOLOGİYASI TƏDQİQAT MƏRKƏZİNİN DİREKTORUNUN MƏQALƏSİ *“REDOX BIOCHEMISTRY AND CHEMISTRY”* JURNALINDA

## ARTICLE BY DIRECTOR OF CELL PATHOLOGY RESEARCH CENTER IN "*REDOX BIOCHEMISTRY AND CHEMISTRY*" JOURNAL

Xəzər Universitetinin Hüceyrə Patologiyası Tədqiqat Mərkəzinin direktoru dosent İradə Xəlilovanın həmmüəllifi olduğu “Hypochlorous acid inactivates myeloperoxidase inside phagocytosing neutrophils” (Hipoxlorit turşusu faqositoz edən neytrofillərin daxilində mieloperoksidazanı inaktivləşdirir) adlı məqalə Elsevier-in “*Redox Biochemistry and Chemistry*” jurnalında ilkin versiya olaraq 26 iyul 2023-cü il tarixində onlayn dərc edilmişdir.

The first version of the article entitled “Hypochlorous acid inactivates myeloperoxidase inside phagocytosing neutrophils”, co-authored by Assoc. Prof. Irada Khalilova, director and principal investigator of the Center for Cell Pathology Research, Khazar University, was published online by Elsevier on 26 July 2023 as a pre-proof version in the open-access journal of “*Redox Biochemistry and Chemistry*”.

***https://www.sciencedirect.com/science/article/pii/S277317662300007X?via%3Dihub***

## "XƏZƏR"İN BAKALAVR TƏLƏBƏLƏRİNİN HƏMMÜƏLLİF OLDUQLARI FƏSİLLƏR "*ADVANCED FLUOROPOLYMER NANOCOMPOSITES*" KİTABINDA




Xəzər Universitetinin bakalavr tələbələri və universitetin Nanotexnologiya tədqiqat qrupunun üzvləri: Zeynəb Fərzizadə, Rasim Yusifov, Seymur Mirzəliyev, Mətləb Haçıyev və Rəşad Musayevin həmmüəlliflikIə hazırladıqları fəsillər "Elsevier& Woodhead" Nəşriyyat Şirkətlərinin çap etdiyi "*Advanced Fluoropolymer Nanocomposites*" ("Qabaqcıl floropolimer nanokompozitlər") kitabında dərc olunmuşdur.

## CHAPTERS CO-AUTHORED BY KHAZAR UNIVERSITY UNDERGRADUATE STUDENTS IN THE BOOK "*ADVANCED FLUOROPOLYMER NANOCOMPOSITES*"

Undergraduate students of Khazar University and members of the university's Nanotechnology research group: Zeynab Farzizda, Rasim Yusifov, Seymur Mirzaliyev, Matlab Haviyev and Rashad Musayev, co-authored chapters in the book "*Advanced Fluoropolymer Nanocomposites*" published by "Elsevier" Publishing Company and "Woodhead Publishing" Series in Composites Science and Engineering.

*https://www.sciencedirect.com/science/article/abs/pii/B9780323953351000086*
*https://www.sciencedirect.com/science/article/abs/pii/B9780323953351000074*




## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN MÜƏLLİMİNİN MƏQALƏSİ "*JOURNAL OF EURASIAN STUDIES*" JURNALINDA

## ARTICLE BY THE LECTURER OF POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT IN "*JOURNAL OF EURASIAN STUDIES*"

Xəzər Universitetinin Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi Dr. Fərid Quliyevin "Renewable Energy Targets and Policies in Traditional Oil-Producing Countries: A Comparison of Azerbaijan and Kazakhstan" ("Ənənəvi neft hasil edən ölkələrdə bərpa olunan enerji hədəfləri və siyasətləri: Azərbaycan və Qazaxıstanın müqayisəsi") adlı məqaləsi "*Journal of Eurasian Studies*" jurnalında (2023, Vol. 0(0) 1-15) dərc edilmişdir. Qeyd edək ki, "*Journal of Eurasian Studies*" Scopus verilənlər bazasında indeksləşdirilib.

Lecturer of the Department of Political Sciences and Philosophy of Khazar University Dr. Farid Guliyev's article "Renewable Energy Targets and Policies in Traditional Oil-Producing Countries: A Comparison of Azerbaijan and Kazakhstan" was published in "*Journal of Eurasian Studies*" (2023, Vol. 0(0) 1-15). Note that "*Journal of Eurasian Studies*" is indexed in the Scopus database.

*https://journals.sagepub.com/doi/10.1177/18793665231177720*

# RİYAZİYYAT DEPARTAMENTİNİN PROFESSORU BİLƏNDƏR ALLAHVERDİYEVİN MƏQALƏLƏRİ

# ARTICLES BY BILANDER ALLAHVERDIYEV, PROFESSOR OF THE DEPARTMENT OF MATHEMATICS

## "*SOUTHEAST ASIAN BULLETIN OF MATHEMATICS*" JURNALINDA

## IN JOURNAL "*SOUTHEAST ASIAN BULLETIN OF MATHEMATICS*"

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "On the solutions for a nonlinear singular q-Sturm-Liouville problems on the whole axis" ("Bütün oxda verilmiş qeyri-xətti sinqulyar q-Şturm-Liuvill problemlərinin həlli haqqında") adlı birinci müəllifi olduğu məqalə "*Southeast Asian Bulletin of Mathematics*" jurnalında (2023, Cild 47, № 2) dərc olunmuşdur. Qeyd edək ki, "*Southeast Asian Bulletin of Mathematics*" jurnalı MathSciNet (Mathematical Reviews) və Zentralblatt MATH bazalarında indekslənib.

Məqalədə bütün həqiqi oxda verilmiş qeyri-xətti q-Şturm-Liuvill məsələsi araşdırılır (burada sonsuzluqda q-Şturm-Liuvill ifadəsi üçün limit-dairə halına baxılır). Müəlliflər bu məsələnin həllinin mövcudluğu və yeganəliyi haqqında teoremler isbat edirlər.

The article "On the solutions for a nonlinear singular q-Sturm-Liouville problems on the whole axis", the first author of which is Bilandar Allahverdiyev, professor of the Department of Mathematics at Khazar University, was published in the journal "*Southeast Asian Bulletin of Mathematics*" (2023, volume 47, № 2). Note that the journal "*Southeast Asian Bulletin of Mathematics*" is indexed in MathSciNet (Mathematical Reviews) and Zentralblatt MATH databases.

The paper considers a nonlinear q-Sturm-Liouville problem on the whole real axis in which the limit-circle case holds for q-Sturm-Liouville expression at infinity. The authors established the existence and uniqueness of solutions for this problem.

*http://www.seams-bull-math.ynu.edu.cn*

***

## "*FILOMAT*" JURNALINDA

## IN JOURNAL "*FILOMAT*"

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "β-Dirac systems" ("β-Dirak sistemleri") adlı birinci müəllifi olduğu məqalə "*Filomat*" jurnalında (2023, Cild 37, № 23) dərc edilmişdur. Bu məqalədə müəlliflər β-Dirak sistemini təqdim edirlər. Bu sistemin bəzi spektral xassələri ətraflı öyrənilir.

The article entitled "β-Dirac systems" the first author of which is Bilander Allahverdiyev, professor of Khazar University Mathematics Department, was published in "*Filomat*" journal (2023, Vol. 37, No. 23). In this paper, the authors present the β-Dirac system. Some spectral properties of this system are

*https://www.pmf.ni.ac.rs/filomat-content/2023/37-23/37-23-11-19021.pdf*

***

***

## "*UKRAİNS'KYİ MATEMATYCHNYİ ZHURNAL*" JURNALINDA

## IN THE JOURNAL "*UKRAINS'KYI MATEMATYCHNYI ZHURNAL*"




Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "Impulsive Dirac system on time scales" ("Zaman şkalasında impulsiv Dirak sistemi") adlı birinci müəllifi olduğu məqalə "*Ukrains'kyi Matematychnyi Zhurnal*" jurnalında (2023, Cild 75, № 6) dərc edilmişdur. Qeyd edək ki, "*Ukrains'kyi Matematychnyi Zhurnal*" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indeksləşdirilib.

Məqlədə müəlliflər Şturm zaman şkalasında impulsiv Dirak sistemini tədqiq edirlər. Bu sistem üçün varlıq teoremi isbatlanır. Impulsiv dinamik Dirak sistemi tərəfindən yaradılan maksimal, minimal və öz-özünə qoşma olan operatorlar qurulur. Müəlliflər bu məsələ üçün Qrin funksiyasını da qururlar. Nəhayət, məxsusi funksiyalara görə sıraya ayırma məsələsi həll edilir.

The article entitled " Impulsive Dirac system on time scales " by Bilander Allahverdiyev, professor of the Department of Mathematics of Khazar University, was published in "*Ukrains'kyi Matematychnyi Zhurnal*" ( "*Ukrainian Mathematical Journal*") (2023, Vol. 75, No. 6). Note that the journal "*Ukrainis'kyi Matematychnyi Zhurnal*" is indexed in the databases "Web of Science" and "Scopus".

In this article, the authors consider an impulsive Dirac system on Sturmian time scales. An existence theorem is given for this system. A maximal, minimal and self-adjoint operators generated by the impulsive dynamic Dirac system are constructed. The authors also construct the Green function for this problem. Finally, an eigenfunction expansion is obtained.

*https://umj.imath.kiev.ua/index.php/umj/article/view/7120*

***

## "*QUALITATIVE THEORY OF DYNAMICAL SYSTEMS*" JURNALINDA

## IN JOURNAL" *QUALITATIVE THEORY OF DYNAMIC SYSTEMS*"

Xəzər Universiteti Riyaziyyat departamentinin professoru Biləndər Allahverdiyevin "Titchmarsh-Weyl theory for impulsive dynamic Dirac system" ("İmpulsiv dinamik Dirak sistemi üçün Titçmarş-Veyl nəzəriyyəsi") adlı birinci müəllifi olduğu məqalə "*Qualitative Theory of Dynamical Systems*" jurnalında (2023, Cild 22, № 148) dərc edilmişdur. Qeyd edək ki, "*Qualitative Theory of Dynamical Systems*" jurnalı "Web of Science" və "Scopus" verilənlər bazalarında indeksləşdirilib.

Məqalədə müəlliflər impulsiv dinamik Dirak sistemi üçün Titçmarş-Veyl nəzəriyyəsini tədqiq edirlər. Bu sistem üçün limit-dairəsi/limit-nöqtəsi təsnifatı aparılır. Məqalədə isbat olunur ki, impulsiv dinamik Dirak sistemində klassik Dirak sistemlərində olduğu kimi, yalnız limit-nöqtəsi halı mövcud olur. Nəhayət, məqalə nəticələrinə aid bir nümunə təqdim edilir.

The article entitled "Titchmarsh-Weyl theory for impulsive dynamic Dirac system" the first author of which is Bilandar Allahverdiyev, professor of the Department of Mathematics at Khazar university, was published in the journal "Qualitative Theory of Dynamic Systems" (2023, Volume 22, № 148).Note that the journal "Qualitative Theory of Dynamic Systems" is indexed in the databases "Web of Science" and "Scopus".

In this paper, the authors study the Titchmarsh-Weyl theory of the impulsive dynamic Dirac system. The limit-cerce/limit-point classification will be obtained for this system. Later, it has been proven that just like the classical Dirac systems, only the limit-point case occurs in the impulsive dynamic Dirac system. Finally, an example is given for the results in the article.

*https://link.springer.com/article/10.1007/s12346-023-00846-4*

***




## TARİX VƏ ARXEOLOGİYA DEPARTAMENTİNİN MÜDİRİNİN MƏQALƏSİ QAZAXISTANDA ÇAP OLUNMUŞ KİTABDA

Qazaxıstandakı Əhməd Yəsəvi Universitetinin Avrasiya Araşdırmaları İnstitutu tərəfindən "Türk dünyasının entegrasyonu sürecinde anahtar bir kavram:Türkistan" layihəsi çərçivəsində Türk dünyasının müxtəlif universitetlərindən elm adamlarının məqalələrinin yer aldığı ikicildlik "*Tarihi ve edebi metinlerde Türkistan*" kitabı çap olunmuşdur.

Kitabın sentyabr ayında çapdan çıxmış ikinci cildinə Xəzər Universiteti Tarix və arxeologiya departamentinin müdiri Telman Nüsrətoğlunun "Azərbaycan tarixşünaslığında Türkistan" başlıqlı məqaləsi də daxil edilmişdir.

## ARTICLE BY HISTORY AND ARCHEOLOGY DEPARTMENT HEAD IN THE BOOK

A two-volume book "Turkistan in historical and literary texts" containing articles by scientists from various universities of the Turkic world was published by the Institute of Eurasian Studies of Ahmad Yasavi University in Kazakhstan within the framework of the "A key concept in the process of integration of the Turkish world: Turkistan" project.

The second volume of the book, which was published in September, includes an article entitled "Turkistan in Azerbaijani historiography" by Telman Nusratoglu, head of Khazar University's History and Archeology Department.

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİ MÜDİRİNİN MƏQALƏSİ "*YENİ ŞAFAK*" QƏZETİNDƏ

## ARTICLE BY POLITICAL SCIENCES AND PHILOSOPHY DEPARTMENT HEAD IN "*YENİ ŞAFAK*" NEWSPAPER

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin "Ulusallıktan bölgesel ekonomik merkeze doğru: Yeni Türkiye" adlı məqaləsi Türkiyənin "*Yeni Şafak*" qəzetinin 11 iyul 2023-cü il tarixli sayında dərc edilmişdir.

The article by Dr.Orkhan Valiyev, head of the Department of Political Sciences and Philosophy entitled "From national to regional economic center: The New Türkiye", was published in the July 11, 2023, issue of Türkiye's "*Yeni Şafak*" newspaper.

***https://www.yenisafak.com/dusunce-gunlugu/ulusalliktan-bolgesel-ekonomik-merkeze-dogru-yeni-turkiye-4544260***

## NANOTEXNOLOGİYA LABORATORİYASININ DİREKTORUNUN HƏMMÜƏLLİFİ OLDUĞU MƏQALƏ "*AMERICAN CHEMICAL SOCIETY*" JURNALINDA

## ARTICLE CO-AUTHORED BY KHAZAR UNIVERSITY STAFF MEMBER PUBLISHED IN "*AMERICAN CHEMICAL SOCIETY*" JOURNAL

Xəzər Universitetinin Nanotexnologiya laboratoriyasının direktoru Dr. Rəsul Moradinin həmmüəllifi olduğu "Metal nanoclusters in Point-of-Care Sensing and Biosensing Applications" adlı məqalə dünyanın ən nüfuzlu nəşrlərindən biri olan "*American Chemical Society*" jurnalında dərc olunub.

Məqalə İspaniya, İran və Danimarkadan olan aparıcı tədqiqatçılarla beynəlxalq əməkdaşlıq vasitəsilə hazırlanmışdır.

The new article by Dr. Rasoul Moradi, director of Nanotechnology Laboratory at Khazar University, entitled "Metal Nanoclusters in Point-of-Care Sensing and Biosensing Applications" has been published in one of the world's most impactful publication "*American Chemical Society*".

The article was developed through an international collaboration with leading researchers from Spain, Iran and Denmark.

***https://pubs.acs.org/doi/abs/10.1021/acsanm.3c01569***

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENİNİN MÜDİRİNİN MƏQALƏSİ "*POLITICAL REFLECTION*" JURNALINDA

## ARTICLE BY POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT HEAD IN "*POLITICAL REFLECTION*" JOURNAL

Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Dr. Orxan Vəliyevin "Peace Negotiations Over Karabakh: Opportunities and Challenges" ("Qarabağ üzərindəki sülh danışıqları: imkanlar və çağırışlar")adlı məqaləsi "*Political Reflection*" jurnalında (sentyabr 2023) dərc edilmişdir.

Dr. Vəliyev məqalədə 44 günlük müharibə ilə Qarabağdakı status-kvonun artıq dəyişdiyini və sülh müqaviləsinin də yalnız Azərbaycanın beynəlxalq hüquqa və öz Konstitusiyasına müvafiq mövqeyinə uyğun imzalana biləcəyini əsaslandırır.

An article by Dr. Orkhan Valiyev, head of the Department of Political Sciences and Pilosophy, entitled "Peace Negotiations Over Karabakh: Opportunities and Challenges" was published in the journal "Political Reflection" (September 2023).

Dr. Valiyev argues in the article that the status quo in Karabakh has already changed with the 44-day war and that the peace treaty can only be signed based on Azerbaijan's position in accordance with international law and its own Constitution.

***https://politicalreflectionmagazine.com/2023/09/21/peace-negotiations-over-karabakh-opportunities-and-challenges/***



# PAŞAYEVA QƏNİRƏ ƏLƏSGƏR QIZI

# PASHAYEVA GANIRA ALASGAR

Ağır xəbər – Milli Məclisin deputatı, Milli Məclisin Mədəniyyət Komitəsinin sədri Qənirə Paşayevanın vəfatı Xəzər Universitetinin kollektivini də dərindən kədərləndirdi. Yüksək dövlət səlahiyyətləri ilə yanaşı ictimai xadim kimi geniş fəaliyyət göstərən Qənirə Paşayeva yalnız öz seçiciləri ilə deyil, əhalinin müxtəlf təbəqələri ilə, xüsusən şəhid ailələri ilə daim görüşür, qayğı göstərirdi. Mədəniyyət komitəsinin sədri kimi ədəbiyyat və incəsənət xadimlərini ad günlərində təbrik etmək, onlarla görüşmək fəaliyyətinin diqqət çəkən sahəsi idi. Türk dünyasına böyük sevgisi olan Qənirə Paşayeva Türkiyə və Azərbaycan qardaşlığına, ümumiyyətlə türk dövlətlərinin birliyinə xidməti ilə də tanınırdı.

Qənirə Paşayeva ilə Xəzər Universitetini uzun illərin sıx dostluq münasibətləri birləşdirirdi. O, bir müddət universitetdə müəllim kimi çalışmışdı, sonralar universitetin tədbirlərinə böyük məmnuniyyətlə gələr, kollektivlə görüşər, dərin məzmunlu çıxışlar edərdi. Xəzər Universitetinə ölkənin ali təhsil məkanındakı yenilikçi xüsusiyyətlərinə görə səmimi sevgisi vardı, universitetin kollektivi də onu ölkənin gözəl ziyalı xanımı, dərin zəkalı ictimai xadım, qayğıkeş insan kimi sevirdi.

Qənirə Paşayevanın əziz, unudulmaz xatirəsi qəlbimizdə daim yaşayacaqdır.

Allah rəhmət eləsin!

**Xəzər Universitetinin kollektivi adından**
**Prof. Akad. Hamlet İsaxanlı**

Very devastating news-the death of MP Ganira Pashayeva, chairman of the Culture Committee of the Milli Majlis, deeply saddened the staff of Khazar University. Ganira Pashayeva, who was a very active public figure along with her high state powers, met not only with her constituents, but also with various sections of the population, especially the families of martyrs, and cared for them. As the chairman of the Culture Committee, she congratulated literary and art figures on their birthdays and met with them,which was the highlight of her activity. Ganira Pashayeva, who had a great love for the Turkic world, was also known for her service to the brotherhood of Türkiye and Azerbaijan and the unity of Turkic states in general.

Ganira Pashayeva and the Khazar University had long-term close friendly relations. For some time she worked as a teacher at the University, and later she would come to the university events with great pleasure, meet with the staff and make profound speeches. She had a sincere love for Khazar University because of its innovative features in the country's higher education space, and the university staff loved her as a beautiful intelligent lady of the country, a deeply intelligent public figure, and a caring person.

The dear, unforgettable memory of Ganira Pashayeva will always live in our hearts.

Rest in peace!

**Prof. Acad. Hamlet Isakhanli on behalf of**
**Khazar University Staff**

# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqədə iştirak etmək üçün məktəbə gəlməklə, bizə zəng etməklə və ya online qeydiyyatdan keçə bilərsiniz. http://e.dunyaschool.az/sagirdqebulu

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairəsi əsas götürülür. Hər bir şagirdin fərdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qəbul imtahanında ən yüksək nəticə göstərən VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölməsində tədris Beynəlxalq Bakalavr Təşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur.

Diplom proqramında təhsil müddəti iki ildir (X, XI siniflər).

Azərbaycan və rus bölmələrinə ingilis dili ikinci dil kimi beynəlxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman və ya çin dili də öyrədilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür və tədris prosesinin təşkili bu yönümdə qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə fərdi yanaşmağa imkan yaradır.

Sağlam əsaslar üzərində qurulmuş ciddi nizam-intizam təlim-tərbiyə prosesinin yüksək səviyyədə təşkilinə kömək edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana məktəbinə qəbul zamanı hər bir uşağın fərdi xüsusiyyətlərini öyrənmək üçün məktəbin psixoloqu valideynlərlə fərdi söhbətlər aparır. Uşaqlar psixoloji müayinədən və həkim müayinəsindən keçirilir.

Uşaqların sağlamlığı, normal qavrama qabiliyyəti, səlis nitqi və maraq dairəsi əsas götürülür.

Məktəbə qəbul ediləcək şagirdlər "Şagird qəbulu üzrə məktəbdaxili komissiya"nın rəyi əsasında müəyyən edilir və məktəb rəhbərinin əmri ilə rəsmiləşdirilir.

### QƏBUL ÜÇÜN TƏLƏB OLUNAN SƏNƏDLƏR:

- Ərizə
- 4 ədəd fotoşəkil (3x4, rəngli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Şəxsiyyət vəsiqəsi
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

Ünvan: Binəqədi rayonu,
Əcəmi Naxçıvani 9
Tel: +994 12 563 59 40/47/48

# XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

## NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

### TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

**650-700 bal - təhsil haqqından tam azad edilir**
**600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir**
**550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir**
**500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir**
**450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir**
**400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir**
**350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir**

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Radiotexnika və telekommunikasiya mühəndisliyi
- Elektrik və elektronika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informasiya müəllimliyi
- Fizika müəllimliyi
- Memarlıq

### 2 QRUP

- Mühasibat
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm işinin təşkili
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi
- Tarix və coğrafiya müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya
- Baytarlıq təbabəti

### 5 QRUP

- Dizayn
- Təsviri incəsənət müəllimliyi